

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 07 - iyul 2019



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 07 - iyul 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri ....4
Fuad Ələsgərov. Məhkəmə-hüquq islahatlarının yeni mərhələsi ....11
Fikrət Məmmədov. Azərbaycan Prezidentinin Fərmanı məhkəmə hakimiyyətinə ictimai etimadın artmasına xidmət edir ....15
Sumqayıtda Fərmanla qarşıya qoyulan vəzifələrə dair müşavirə ....23
Fərmanın icrası üzrə görülən işlərin Məhkəmə-Hüquq Şurasında müzakirəsi ....23
Ədliyyə Nazirliyində işin təkmilləşdirilməsinə yönəlmiş əməliyyat müşavirəsi ....25
İnsan Hüquqları üzrə Avropa komissarı ilə Ədliyyə Nazirliyində görüş ....26
Avropa Şurası ilə hüquqi sahədə layihələr təşviq olunur ....27
Azərbaycanın İkinci Könüllü Milli Hesabatı BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunub ....28
Azərbaycan Notariat Palatasının təsis yığıncağı keçirilib ....30
“Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" adlı yeni layihənin təqdimatı olub ....32
AŞPA-nın həmməruzəçisi Ədliyyə Nazirliyində olub ....34
Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər ....35
Ədliyyə orqanları tərəfindən cari ilin birinci yarımilində görülmüş işlər müzakirə olunub ....35
Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti müsabiqəyə yekun vurulub ....40
Hakimlərin Seçki Komitəsinin məlumatı ....41
Ədliyyə Akademiyasının məlumatları ....42

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanunu ........45
"İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1325 nömrəli Sərəncamı ........47
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1633-VQD nömrəli Qanunu........48
"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1634-VQD nömrəli Qanunu........50
"Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1635-VQD nömrəli Qanunu ........51
"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1638-VQD nömrəli Qanunu........52
"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1639-VQD nömrəli Qanunu ........54
"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1640-VQD nömrəli Qanunu ........56
"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1641-VQD nömrəli Qanunu ..57
"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1647-VQD nömrəli Qanunu ........58

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1839 Tiraj:1100 ədəd

# Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri

## ◆ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib və Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin Azərbaycana səfərinin bu əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. Xalqlarımız arasında münasibətlərə toxunan Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn turistlərin sayının daim artmasını bu münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirib.





Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırıb. Qonaq vurğulayıb ki, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və bu əlaqələrin daha da inkişaf etdirilməsi əzmini ifadə edib. Valid bin Mohammad Al-Samaani paytaxtımızda gördüyü inkişaf proseslərinin dərin

təəssürat yaratdığını qeyd edib. O, Bakıda azərbaycanlı həmkarları ilə görüşlərin uğurla keçdiyini, Azərbaycanın ədliyyə sistemi sahəsində əldə olunan yeniliklərin maraq doğurduğunu vurğulayıb.

Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edilib.

## ◆ Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri ilə görüşü

**Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 16-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərindən danışan Baş Nazir Novruz Məmmədov ölkələrimiz arasında bir çox istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində yaxşı əlaqələrin olduğunu bildirərək deyib: "Ölkələrimiz və xalqlarımız arasındakı dostluq və tərəfdaşlıq münasibətləri həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər, aparılan danışıqlar sayəsində daha da möhkəmlənib. Əminəm ki, sizin səfəriniz də ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə öz müsbət töhfəsini verəcək".

İki ölkə arasındakı siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Novruz Məmmədov cari ilin iyununda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının XIV Zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına etdiyi səfəri məmnunluqla xatırladıb. Baş Nazir iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Baş Nazir Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyə görə Səudiyyə Ərəbistanına minnətdarlığını ifadə edib.

Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani Səudiyyə Ərəbistanının bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb. Cari ilin əvvəlində iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandığını xatırladan nazir Valid bin Mohammad Al-Samaani iyulun 15-də isə Əməkdaşlıq Proqramının imzalandığını söyləyib. Qonaq Azərbaycanın ədliyyə sahəsində tətbiq etdiyi informasiya resursları, o cümlədən "Elektron məhkəmə" informasiya sistemi ilə tanış olduqlarını bildirərək deyib: "Ölkələrimiz arasında məhkəmə-hüquq sistemi və qanunvericilik sahələrində əməkdaşlıq üçün yaxşı imkanlar var. Səfərimizin məqsədi də müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə töhfə verməkdir".

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

## ◆Səudiyyə Ərəbistanı ilə ədliyyə sahəsində Əməkdaşlıq Proqramı imzalanıb






*Ədliyyə Nazirliyində görüş və Əməkdaşlıq Proqramının imzalanması mərasimi*

**Səudiyyə Ərəbistanı Krallığı ilə ikitərəfli münasibətlərin inkişafında hüquqi əlaqələrə böyük əhəmiyyət verilir, qarşılıqlı səfərlər həyata keçirilir. Cari ilin əvvəlində Azərbaycanın Ədliyyə naziri Fikrət Məmmədovun Səudiyyə Ərəbistanına səfəri zamanı iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb və həmin sənəd ölkə Prezidentinin 2019-cu il 12 mart tarixli Fərmanı ilə təsdiq olunub. Bütün bunlar hüquqi sahədə qarşılıqlı fəaliyyətin dərinləşdirilməsinə təkan verib.**

Əməkdaşlığın genişləndirilməsi, Azərbaycanın məhkəmə-hüquq sistemi və aparılan islahatlarla tanış olmaq məqsədilə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Dr. Valid bin Mohammad Al-Samaani geniş nümayəndə heyəti ilə iyulun 15-19-da Azərbaycanda səfərdə olub.

İyulun 15-də iki ölkənin Ədliyyə nazirlərinin görüşü keçirilib.

Görüşdə ölkələrimiz arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin inkişafına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun böyük önəm verdiyi vurğulanıb, əlaqələrimizin müxtəlif istiqamətlərdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. İki ölkə arasında turist axının yüksəlməsinin ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyi qeyd olunub.

Nazir F.Məmmədov Səudiyyə Ərəbistanına məhsuldar səfərini və nümayəndə heyətimizə böyük şərəf verilərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı tərəfindən qəbulunu böyük məmnunluqla xatırladıb, nazirliklər arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qarşılıqlı fəaliyyətin inkişafına xidmət etdiyini vurğulayıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan genişmiqyaslı islahatlar və yeniliklər, xüsusilə bu sahədə yeni mərhələ olan ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli






*Ölkəmizin ədliyyə sahəsindəki innovasiyalarla tanışlıq*







***Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin müasir binası və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə tanışlıq***






Fərmanı barədə məlumat verilib.

Ölkə Prezidentinin təşəbbüsü ilə yaradılmış və Azərbaycan brendi olan, ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN" xidmətin səmərəli fəaliyyəti qeyd olunub. Bildirilib ki, "ASAN" xidmət BMT-nin dövlət xidmətləri sahəsində xüsusi mükafatına layiq görülüb və artıq digər dövlətlər onu nümunəvi model kimi tətbiq edirlər. Səfər zamanı ASAN mərkəzlərinə baş çəkilərək onun fəaliyyəti ilə yaxından tanışlıq olub.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Səudiyyə Ərəbistanının naziri respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını ifadə edib. Bildirib ki, Ədliyyə nazirlikləri arasında Anlaşma Memorandumunun bağlanması, hazırkı səfər və Əməkdaşlıq Proqramının imzalanması İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralının Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə verdiyi əhəmiyyətin təzahürüdür.

Qonaq əlaqələrimizi bütün sahələrdə olduğu kimi, ədliyyə sahəsində də inkişaf etdirmək niyyətində olduğunu və bunun üçün səylərini əsirgəməyəcəyini bildirib. O, Azərbaycanın ədliyyə və məhkəmə sahəsindəki yeniliklərinə böyük maraq göstərib, bu sahədə ölkəsində də islahatların aparıldığını bildirərək təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib.

Söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb, Səudiyyə Ərəbistanı Krallığının münaqişənin həlli ilə bağlı ədalətli və prinsipial münasibət nümayiş etdirərək ölkəmizin haqlı mövqeyini dəstəklədiyi vurğulanıb. Qonaq bildirib ki, Səudiyyə Ərəbistanı Krallığının ölkəmizə münasibətdə mövqeyi dəyişməzdir və daim Azərbaycanın yanındadır.

Sonra nazirliklərarası Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə praktiki sənəd olan Əməkdaşlıq Proqramı imzalanıb. Sənəddə birgə tədbirlərin, o cümlədən ədliyyə və məhkəmə sistemləri ilə tanışlıq məqsədilə qarşılıqlı səfərlərin təşkili, qabaqcıl beynəlxalq təcrübələr üzrə məsləhətləşmələrin aparılması, ədliyyə sahəsindəki yeniliklər üzrə məlumat mübadiləsi, ədliyyə işçiləri və hakimlərin tədrisi üzrə videokonfransların və təlim səfərlərinin təşkili nəzərdə tutulur. Sənədin ekspertlər səviyyəsində də münasibətlərin genişləndirilməsinə xidmət edəcəyi bildirilib.

Səudiyyə Ərəbistanının Ədliyyə nazirinin ölkəmizin ədliyyə sahəsindəki innovasiyalara böyük marağı nəzərə alınaraq görüşdə səyyar notariat xidmətlərini istənilən yerdə aparmağa, sənədləri çapdan çıxarmağa və təqdim

etməyə imkan verən ərəb dilli proqram təminatı ilə təchiz olunmuş xüsusi elektron notariat çantası nümayiş etdirilərək qonaqlara təqdim olunub. Azərbaycanın innovativ məhsulu təqdirəlayiq hesab olunaraq ondan faydalanılacağı bildirilib.

Azərbaycanın Xan Sarayı və Şəkinin tarixi mərkəzinin yenicə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi haqqında məlumat verilib. Həmçinin, həmin siyahıya daxil olan Birinci Səudi Dövlətinin paytaxtı, memarlıq sənətinin gözəl nümunəsi olan qədim Diriiyyə şəhəri haqqında azərbaycanlı müəllifin "Diriiyyə - açıq səma altında muzey" adlı kitabının Əlahəzrət Səudiyyə Ərəbistanı Kralının nümayəndə heyətimiz səfərdə olarkən xeyir-duası və ölkəmizin Ədliyyə Nazirliyinin dəstəyi ilə ərəb dilinə tərcümə edilməklə nəfis nəşr edilmiş nüsxəsi Səudiyyə Ərəbistanı tərəfinə təqdim edilib. Nazir Dr. Valid bin Mohammad Al-Samaani kitabın ərsəyə gəlməsinə görə təşəkkürünü bildirərək belə bir dəyərli nəşrin xalqlarımız arasında qardaşlıq münasibətlərinin əyani təzahürü olduğunu vurğulayıb.

Tədbirdə Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr və ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev iştirak ediblər.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Həmin gün qonaqlar nazirliyin müxtəlif reyestrləri, elektron sistemləri və digər informasiya resursları ilə tanış olub, Azərbaycan ixtirası olan vətəndaşlara səyyar və məsafədən xidmətlər göstərən elektron ədliyyə köşkü və "Mobil notariat" proqram təminatı barədə təqdimat keçirilib. Qonaqlar ədliyyə sahəsində innovasiyaları maraqla qarşılayıb, ölkəmizin nailiyyətlərini təqdir ediblər.

Nümayəndə heyəti həmçinin, Yasamal Rayon Məhkəməsinə baş çəkərək müasir infrastrukturla və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə tanış olublar.

Səfər çərçivəsində qonaqların Konstitusiya və Ali məhkəmələrində, Baş Prokurorluqda rəsmi görüşləri keçirilib, habelə paytaxtın tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən sayılan Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub.

## ◆Konstitusiya Məhkəməsində



**Ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti ilə iyulun 16-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində görüş keçirilib.**

Səudiyyə Ərəbistanı Krallığı nümayəndə heyətinin Azərbaycana səfərindən məmnunluğunu bildirən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev səfər çərçivəsində keçirilən səmərəli görüşlərin ölkələrimiz arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Sədr Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun səmimi dostluq münasibətlərinin iki ölkənin müvafiq qurumları arasında işgüzar

əlaqələrin inkişafına zəmin yaratdığını qeyd edib.

Bildirilib ki, ikitərəfli əlaqələrin yüksək səviyyədə olması qarşılıqlı səfərlərin həyata keçirilməsi, təcrübə mübadiləsinin aparılması və məhkəmə-hüquq sahəsindəki yeniliklərlə tanışlıq üçün əlverişli şərait yaradır. Bu baxımdan ölkələrimiz arasında hüquq sahəsində münasibətlərin uğurlu inkişafı və əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanlar var.

F.Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verib.

Nümayəndə heyətinin rəhbəri Dr.Valid bin Mohammad Al-Samaani Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində təcrübə mübadiləsinin vacibliyini qeyd edib. Ölkəsinin Ali Məhkəmə Şurası ilə Azərbaycanın Konstitusiya Məhkəməsi arasında əməkdaşlığın inkişafında maraqlı olduqlarını diqqətə çatdıran qonaq Səudiyyə Ərəbistanı Krallığının məhkəmə-hüquq sistemi barədə ətraflı məlumat verib.

Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edən Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Azərbaycanın sürətli inkişafından və ölkəmizin gözəlliyindən məmnunluğunu bildirib.

Söhbət zamanı Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı qarşılıqlı maraq doğuran suallar ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qonaqlar Konstitusiya Məhkəməsinin binasında yaradılan şəraitlə tanış olublar.

## ◆Ali Məhkəmədə

**Ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyəti iyulun 16-da Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüşüb.**

Görüşdə Ramiz Rzayev Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə qonağa məlumat verib, son illər respublikamızda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, eləcə də ədalət mühakiməsini həyata keçirmək, qanunun aliliyini təmin etmək məqsədilə Ali Məhkəmənin qarşısında duran vəzifələrdən danışıb.



Azərbaycanın Səudiyyə Ərəbistanı ilə işgüzar əlaqələrinin yaranmasından məmnunluğunu ifadə edən Ali Məhkəmənin sədri əmin olduğunu bildirib ki, iki ölkənin Ədliyyə nazirlikləri arasında imzalanan müvafiq müqavilələr ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edir.

Səudiyyə Ərəbistanı Krallığının məhkəmə sistemindən danışan Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirib. Qonaq







əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti Ali Məhkəmənin inzibati binası ilə tanış olub. Məhkəmə tarixi muzeyinə baxan Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri xatirə kitabına ürək sözlərini yazıb.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə orqanlarına xüsusi maraq və diqqət göstərdiklərinə, həmçinin əhəmiyyətli görüşə görə Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə nazirinə və nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirib, işlərində uğurlar arzulayıb.

## Baş Prokurorluqda

**İyulun 16-da Baş prokuror Zakir Qaralov ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Zakir Qaralov ölkələrimiz arasında formalaşmış zəngin tarixə malik və ildən-ilə daha da genişlənən dostluq və səmərəli əməkdaşlıq münasibətlərindən danışıb, qarşılıqlı etimada və dəstəyə əsaslanan ikitərəfli əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun rolunu xüsusi vurğulayıb.

Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ardıcıl həyata keçirilən islahatlar haqqında məlumat verən Baş prokuror əhalinin həyat səviyyəsinin və rifahının yüksəlməsinə yönəlmiş sosial-iqtisadi tədbirlər, eləcə də müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşmasına xidmət edən məhkəmə-hüquq islahatları barədə ətraflı danışıb. Baş prokuror ölkədə mövcud ictimai sabitlik, cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində görülən işlər haqqında söhbət açaraq, bu işdə həm əhali, həm də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən və dünyada artıq Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu, bir milyondan artıq qaçqın və məcburi köçkünümüzün doğma yurdlarından didərgin düşdüyünü qeyd edən Zakir Qaralov bu məsələdə ölkəmizin haqlı mövqeyinə Səudiyyə Ərəbistanı Krallığı tərəfindən göstərilən dəstəyin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən nazir Dr. Valid bin Mohammad Al-Samaani ölkələrimizin hüquq-mühafizə orqanları arasında mövcud olan sıx əlaqələrdən məmnunluğunu ifadə edib. O, iki ölkənin Ədliyyə nazirlikləri arasında imzalanmış Əməkdaşlıq Proqramının əhəmiyyətindən və hüquq sahəsində fəaliyyət göstərən peşəkarlar üçün ixtisasartırma və təcrübə mübadiləsinin perspektivlərindən danışıb.

Söhbət zamanı Azərbaycan Prokurorluğunun fəaliyyət istiqamətləri barədə məlumat verən Baş prokuror Zakir Qaralov prokurorluq orqanları tərəfindən cinayət işlərinin istintaqı, dövlət ittihamının müdafiəsi və qanunların icrasına nəzarət işinin həyata keçirilməsinin xüsusiyyətlərini qonaqların diqqətinə çatdırıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən sahələr üzrə səmərəli fəaliyyətin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb, konkret mövzularda ətraflı fikir mübadiləsi aparılıb.

# Ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası diqqət mərkəzindədir

## MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARININ YENİ MƏRHƏLƏSİ

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar naticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, yeni ictimai münasibətlər yaranır, mövcud olanlar isə keyfiyyətcə yeni xarakter alır. İctimai həyatda münasibətlərin yenilənməsi onların ədalətli, səmərəli və çevik tənzimlənməsi üçün müvafiq hüquqi norma və mexanizmlərin təkmilləşdirilməsini zəruri edir. Bu istiqamətdə həyata keçirilən və keçiriləcək işləri Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov AZƏRTAC-a şərh edərək deyib:***

-Möhtərəm cənab Prezident cari ilin mart ayında məhkəmə-hüquq islahatlarına ciddi ehtiyac olduğunu bəyan edərək onların yeni mərhələsinin başlanmasına təkan vermişdir. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı isə bu prosesin əsas istiqamət və prioritetlərini müəyyən etmişdir.

Fərmanda verilmiş tapşırıq və tövsiyələrin həyata keçirilməsi məqsədilə intensiv iş aparılmış, statistik məlumatlar təhlil edilərək ümumiləşdirilmiş, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir. Azərbaycan Respublikasının Prezidenti islahatların institusional komponentini əhatə edən ilk qanunvericilik aktları paketini 2019-cu il iyulun 19-da imzalamışdır.

İslahatların Fərmanda nəzərdə tutulan digər komponentləri, yəni, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı növbəti normativ hüquqi




aktlar üzərində hazırda hərtərəfli iş aparılır, habelə praktiki sahədə verilən tapşırıq və tövsiyələrin yerinə yetirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İmzalanan normativ hüquqi aktlar paketinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual və Cinayət-Prosessual məcəllələrə dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar, habelə həmin qanunların tətbiqini təmin edən müvafiq sərəncam və fərmanlar daxildir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər ixtisaslaşmış məhkəmələrin iki

sisteminin - inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməlini formalaşdırır. Qeyd edilən qanunlar qüvvəyə mindiyi gündən, yəni, 2020-ci il yanvarın 1-dən etibarən mövcud inzibati-iqtisadi məhkəmələr sistemi ləğv ediləcəkdir.

Məsələyə bir qədər tarixi rakursdan yanaşaq. 2005-ci ildə "İnzibati icraat haqqında" Qanunun, 2009-cu ildə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin qəbulu və növbəti il inzibati-iqtisadi məhkəmələrin yaradılması ölkənin məhkəmə-hüquq sisteminin inkişafında əhəmiyyətli mərhələ olmuşdur. Bununla istənilən müasir cəmiyyətdə həyatın ən mühüm aspektlərindən olan inzibati münasibətləri, yəni, inzibati orqanlarla fiziki və ya hüquqi şəxslər arasındakı münasibətləri tənzimləyən normativ bazanın formalaşdırılması prosesi yekunlaşdırılmış, inzibati münasibətlərdən irəli gələn mübahisələrə məhkəmələrdə baxılması qaydası təsbit edilmişdir.

Ötən dövr ərzində inzibati-iqtisadi məhkəmələr inzibati mübahisələrə baxılması sahəsində geniş təcrübə toplamış, iqtisadi mübahisələrin araşdırılması praktikasını daha da inkişaf etdirmişlər.

Bununla belə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ardıcıl olaraq həyata keçirilən dövlət idarəetməsi sisteminin təkmilləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə, xüsusilə onun qeyri-neft sektorunun inkişafına, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş islahatlar inzibati və iqtisadi sahələrdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılmasını labüd etmişdir.

Qeyd edilən sahələrdə yaranan mübahisələrə dair məhkəmə qərarlarının keyfiyyətinin artırılması üçün hakimlər yüksək peşəkarlıq səviyyəsinə, daha dərin hüquqi biliklərə və zəngin təcrübəyə malik olmalı, həm inzibati, həm də iqtisadi hüquq münasibətlərinin ən son təkamül meyillərindən xəbərdar olmalıdırlar.

Məhz bu məqsədə nail olmaq üçün "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında ədalət mühakiməsi sahəsində ixtisaslaşmanın dərinləşdirilməsi mühüm vasitə qismində müəyyən edilmişdir.

Hazırda fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələr sistemi yaradıldığı dövr üçün mütərəqqi yenilik olsa da, artıq öz missiyasını başa çatdırmış hesab edilə bilər. Həm inzibati, həm iqtisadi münasibətlərin hazırkı səviyyəsi və onların inkişaf potensialı baxımından müvafiq məhkəmələrin və hakimlərin daha yüksək ixtisaslaşma dərəcəsinə nail olunması vacibdir.

İkili, yəni, ümumi (publik) və xüsusi hüquqi təbiətə malik inzibati-iqtisadi məhkəmələr əvəzinə ayrıca inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin yaradılması, məhkəmə-hüquq islahatlarının indiki mərhələsində ixtisaslaşmanın dərinləşdirilməsi üçün optimal üsul hesab edilir.

İnzibati məhkəmələr müstəsna olaraq inzibati orqanların hərəkət və hərəkətsizlikləri, inzibati aktları ilə bağlı olan mübahisələrə, o cümlədən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında nəzərdə tutulduğu kimi vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə baxacaqdır. Bununla da Fərmanda verilmiş tapşırıq, yəni, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlarla mübahisələrinə bu sahədə ixtisaslaşmış vahid bir məhkəmə instansiyasında baxılmasının təmin edilməsi üçün institusional çərçivənin yaradılması göstərişi yerinə yetirilmiş olacaqdır.

Kommersiya məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mülki mübahisələrə baxmaqla, bu zaman mülki prosessual normaları rəhbər tutacaqlar. Bundan əlavə, prosessual qanunvericiliyə edilən dəyişikliklər nəticəsində kommersiya məhkəmələrinin aidiyyətinə həmçinin sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarına toxunan və hazırda rayon (şəhər) məhkəmələri tərəfindən baxılan bir sıra digər kateqoriyalara daxil olan işlər də aid ediləcəkdir. Rayon

(şəhər) məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan bütün digər mübahisələrə dair işlərə baxacaqlar.

Proqnozlaşdırmaq olar ki, kommersiya məhkəmələrinin yaradılması sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla bütövlükdə ölkədə biznes mühitinin inkişafına önəmli töhfə verəcəkdir.

Beləliklə, ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması həm onlarda ixtisaslaşmanın artırılmasına şərait yaradacaq, həm də rayon (şəhər) məhkəmələrinin üzərinə düşən iş yükünün müəyyən dərəcədə azaldılmasına imkan verəcəkdir ki, bununla da bütövlükdə məhkəmə sistemində iş yükünün daha balanslaşdırılmış olmasına yardım edəcəkdir.

Ədalət mühakiməsi sistemi daxilində iki yeni elementin yaradılması yalnız birinci instansiya məhkəmələri səviyyəsini əhatə etsə natamam olardı və qarşıya qoyulmuş məqsədlərə çatmağa imkan verməzdi. Bu səbəbdən yeni dəyişikliklər bütün instansiya məhkəmələrini əhatə edir.

Belə ki, hazırda Ali Məhkəmədə və apellyasiya məhkəmələrində mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalar fəaliyyət göstərir. İnzibati və kommersiya məhkəmələri sistemlərinin ayrılması prinsipinin apellyasiya və kassasiya instansiyalarında da öz məntiqi davamını tapması üçün mövcud məhkəmə kollegiyalarının quruluşunda müvafiq dəyişikliklər edilərək, yuxarı instansiya məhkəmələrində də iki müvafiq kollegiya yaradılır.

Yuxarı instansiya məhkəmələrində fəaliyyət göstərən digər iki kollegiya, yəni, cinayət kollegiyası və hərbi kollegiya cinayət-prosessual normaları rəhbər tutmaqla aşağı instansiya məhkəmələrinin cinayət işləri üzrə hökm və digər yekun qərarlarından şikayət və ya protestlərə baxır. Burada yeganə fərqli cəhət hərbi kollegiyaların müharibə və hərbi xidmət əleyhinə olan cinayətlər, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlər üzrə ixtisaslaşmasıdır. Həmçinin statistik rəqəmlərin müqayisəsi göstərir ki, hərbi kollegiyalarda baxılan işlərin sayı kifayət qədər azdır.

Qeyd edilənləri nəzərə alaraq, apelyasiya və kassasiya instansiya məhkəmələrində hərbi və cinayət kollegiyalarının birləşdirilməsi nəzərdə tutulmuşdur. Burada xüsusi vurğulamaq lazımdır ki, bu dəyişiklik birinci instansiya hərbi məhkəmələrinin fəaliyyətini əhatə etmir, onlar hazırkı qaydada fəaliyyətlərini davam etdirəcəklər.

Bundan əlavə, prosessual qanunvericiliyə edilmiş dəyişikliklərin digər bir istiqaməti işin məhkəmə aidiyyətinə dair mübahisələrə baxılma prosedurlarının səmərəliliyinin artırılması və müddətlərinin qısaldılması ilə bağlıdır.

Hazırda işin inzibati-iqtisadi və ya rayon (şəhər) məhkəməsinə aid olmasına dair mübahisələrə ardıcıl olaraq üç instansiyada - birinci, apellyasiya və kassasiya instansiyalarında baxılır.

Məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurunun sadələşdirilməsi üçün belə mübahisələrə baxan instansiyaların sayının azaldılması nəzərdə tutulmuşdur. Yeni qanunla müəyyən edilmişdir ki, birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyətinə dair mübahisələr üzrə qərarlarından verilən şikayətlərə birbaşa Ali Məhkəmə baxacaqdır.

Ali Məhkəmədə bu kateqoriyadan olan şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərin qarışıq tərkibində tərəflərin təqdim etdiyi sənədlər əsasında baxılacaqdır. Belə şikayətlərə baxılması üçün nəzərdə tutulmuş müddət də 2 aydan 10 günədək qısaldılır. Nəticədə aidiyyətlə bağlı mübahisələrə baxılmasında yubatma və süründürməçilik, heç bir zərurət olmadan aidiyyətlə bağlı çoxsaylı şikayətlərin verilməsi hallarının qarşısı alınacaqdır.

Nəzərdə tutulan dəyişikliklər bir tərəfdən məhkəmə kollegiyaları strukturunun optimallaşdırılmasına, digər tərəfdən isə istər cinayət işləri, istərsə də aidiyyətlə bağlı mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün daha əlverişli şəraitin yaradılmasına səbəb olacaqdır.

Ümumilikdə, qeyd edə bilərik ki, qəbul olunmuş qanunvericilik aktları paketi məhkəmə-hüquq islahatlarının hazırkı mərhələsində aşağıdakı məqsədlərə nail olunmasına şərait yaradacaqdır:

-ayrıca inzibati və kommersiya məhkəmələri sistemlərinin yaradılması yolu ilə məhkəmələrdə ixtisaslaşmanın dərinləşdirilməsi;

-inzibati, kommersiya və rayon (şəhər) məhkəmələri arasında iş yükünün balanslaşdırılması;

-məhkəmə quruluşunun optimallaşdırılması;

-məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurlarının sadələşdirilməsi və müddətlərinin qısaldılması;

-məhkəmə aidiyyətinə dair mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əlavə mexanizmlərin təsbit edilməsi.

Sonda bir daha vurğulanmalıdır ki, hazırda məhkəmə-hüquq islahatları çərçivəsində növbəti normativ hüquqi aktlar toplusu üzərində iş davam edir.

Bu sənədlər toplusuna cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlili və təkmilləşdirilməsi, Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün yeni mexanizmlərin təsbit edilməsi, məhkəmə ekspertizasının təyin edilməsi və keçirilməsi ilə bağlı müddəaların, habelə məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qanunvericilik aktlarının layihələri daxil olacaqdır. Həmçinin məhkəmə, cinayət təqibi və məhkəmə qərarlarının icrası orqanlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən "Elektron məhkəmə", "Elektron icra" sistemlərinin tətbiqinin genişləndirilməsinə yönəlmiş qanunvericilik və praktiki tədbirlər həyata keçiriləcəkdir.

Eyni zamanda, yeni məhkəmələrin yaradılması, apellyasiya və kassasiya instansiyası məhkəmələrində kollegiyaların tərkibinin dəyişməsi ilə bağlı müvafiq kadr islahatları da aparılacaqdır. Yeni hakim vəzifələrinə namizədlərin seçilməsi prosesi zamanı onların peşəkarlıq səviyyəsi qiymətləndiriləcək, müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığının olmasına xüsusi diqqət yetiriləcəkdir. Bu isə dövrün tələbləri ilə ayaqlaşan hüquqşünasların hazırlanması üzrə işin gücləndirilməsini şərtləndirir, o cümlədən hüquq təhsili qarşısında yeni tələblər qoyur.

İctimai münasibətlər daim dəyişməkdədir. Yeni informasiya texnologiyalarının və innovasiyaların tətbiq edildiyi müasir dövrdə ictimai münasibətlərin inkişaf sürəti dəfələrlə artmışdır. Belə olan halda hətta ən mükəmməl qanun çoxşaxəli və mürəkkəb münasibətlərin bütün detallarını mütləq dəqiqliklə tənzimləyə bilməz. Bu baxımdan hüququn tətbiqi təcrübəsi xüsusi əhəmiyyət kəsb edir və hakimlər bu prosesdə olduqca böyük rol oynayırlar. Onlar məhkəmələrdə baxılan mübahisələri həll edərkən yalnız qanunun hərfi mənasını deyil, həmçinin ictimai münasibətlərin mahiyyətini və "qanunun ruhunu" nəzərə almalıdırlar. Yalnız bu halda məhkəmələr Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanında nəzərdə tutulmuş ideyaların həyata keçirilməsinə nail olacaq, hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və məhkəmə qərarlarının daha proqnozlaşdırılan olmasını təmin edəcəklər.

Bütövlükdə, qədəm qoyduğumuz məhkəmə-hüquq islahatları Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq, vətəndaşların hüquqlarının məhkəmələrdə daha etibarlı müdafiəsini təmin etməklə məhkəmələrə etimadın və məhkəmə sisteminin nüfuzunun daha da yüksəldilməsinə səbəb olacaqdır. Aparılan islahatlar ədalət mühakiməsinin keyfiyyətini və səmərəliliyini artırmaqla, ümumilikdə, hüquq sisteminin inkişafına mühüm təsir göstərəcəkdir.

# AZƏRBAYCAN PREZİDENTİNİN FƏRMANI MƏHKƏMƏ HAKİMİYYƏTİNƏ İCTİMAİ ETİMADIN ARTMASINA XİDMƏT EDİR



**Hər bir demokratik cəmiyyətdə müstəqil məhkəmə hakimiyyəti müstəsna rol oynayır. Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş ölkəmizdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmələrə müraciət imkanlarının və əlçatanlığın genişləndirilməsi məqsədilə mühüm qərarlar qəbul olunur, ardıcıl tədbirlər görülür.**

Şübhəsiz ki, ədliyyə və məhkəmə sisteminin inkişafı ötən dövrdə respublikamızda həyata keçirilən hərtərəfli islahatların real təzahürü kimi qiymətləndirilməlidir.

Belə ki, bu gün Azərbaycan ictimai həyatın bütün sahələrində mühüm nailiyyətlərə imza atır. Dünya Bankının "Doing Business 2019" hesabatına əsasən ölkəmiz dünyada ən islahatçı on dövlətdən biri kimi müəyyən edilib. Dövlətimizin başçısının yeni prezidentlik dövrünə nəzər yetirəndə ölkəmizdə hərtərəfli islahatların daha geniş vüsət aldığının şahidi oluruq. İnsanların rifahının yaxşılaşması, sosial xidmətlərin asan, şəffaf və vətəndaş məmnunluğu şəraitində göstərilməsi sahəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə önəmli layihələrin gerçəkləşməsi xüsusi qeyd olunmalıdır.

Təbiidir ki, bu islahatlar ədliyyə orqanlarından, məhkəmə sistemindən də yan keçə bilməzdi. Bu mənada "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında ölkə Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanı məhkəmə hakimiyyətinə verilən müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, bu sahədə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir.

Fərmanın əsas məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması

prosesini sürətləndirməklə onun keyfiyyətini və səmərəliliyini yüksəltmək, bütövlükdə məhkəmə hakimiyyətinə ictimai etimadı, əlçatanlığı və fəaliyyətdə şəffaflığı artırmaqdır.

Ədliyyə və məhkəmə sisteminin gələcək inkişafının strateji prioritetlərini müəyyən edən bu Fərman, həm də müstəsna əhəmiyyətə malik "yol xəritəsi" olmaqla proqram xarakteri daşıyır.

Fərman iqtisadi artımda mühüm əhəmiyyət daşıyan sahibkarlığın inkişafı, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə fəaliyyətinə müdaxilələrin qarşısının alınması, icraatın səmərəliliyinin artırılması və süründürməçiliyin aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması və s. kimi problemlərin həlli istiqamətində qarşıya mühüm vəzifələr qoyub.

Həmin məsələlər təxirəsalınmadan Ədliyyə Nazirliyinin Kollegiyasında, Məhkəmə-Hüquq Şurasının geniş iclasında hərtərəfli müzakirə edilərək konkret tədbirlər müəyyənləşdirilib. Eyni zamanda, Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə və Baş Prokurorluğun məsul vəzifəli şəxslərindən ibarət xüsusi işçi qrupu yaradılaraq qarşıya qoyulmuş məsələlər üzrə təhlillər aparılıb, beynəlxalq təcrübə öyrənilib, kompleks qanunvericilik, institusional və praktiki tədbirlərə dair birgə təkliflər hazırlanıb, digər tədbirlər həyata keçirilib.

Bununla yanaşı Fərmanın aktuallığı və ictimai əhəmiyyəti nəzərə alınaraq bu mühüm sənəddən irəli gələn məsələlər, yeniliklər barədə hüquq ictimaiyyətinin, aidiyyəti qurumların, vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakı ilə geniş ictimai müzakirələrin keçirilməsi xüsusi qeyd olunmalıdır.

Belə ki, məhkəmə-hüquq islahatlarının əsas istiqamətləri, o cümlədən vətəndaşların, xüsusilə sahibkarların məhkəmələrə müraciətetmə imkanının genişləndirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi barədə Amerika Ticarət Palatası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Dünya Bankı ilə birgə cəmiyyətin müxtəlif təbəqələri, biznes dairələri, diplomatik korpusun nümayəndələri və s. üçün geniş ictimai tədbirlər - konfranslar, forumlar və təqdimatlar keçirilib.

Nazirlik tərəfindən belə tədbirlər sahibkarların iştirakı ilə bölgələrdə, o cümlədən Gəncədə və Lənkəranda da təşkil olunub. Bu tədbirlər qarşıda duran vəzifələrin icrasında ictimai fikrin öyrənilməsi, vətəndaş cəmiyyəti nümayəndələrinin təkliflərinin nəzərə alınması baxımından olduqca əhəmiyyətlidir.

Fərmanla verilmiş tapşırıqların icrası çərçivəsində həmçinin, qeyd etdiyim birgə işçi qrupu tərəfindən qısa müddətdə 40-dək normativ aktın layihələri işlənilib hazırlanıb.

Həmin layihələr əsasən sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrə baxacaq yeni ixtisaslaşmış məhkəmələrin yaradılması, məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmə fəaliyyətinin elektronlaşdırılması, hakimlərin və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmə ekspertizasının və məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması və digər məsələlərlə bağlıdır. Eyni zamanda, icra sahəsində fəaliyyəti tənzimləyən normativ aktların sistemləşdirilməsi məqsədilə ilk dəfə olaraq İcra Məcəlləsinin layihəsi işlənib hazırlanıb və aidiyyəti qurumlarla razılaşdırma mərhələsindədir.

Xüsusilə qeyd olunmalıdır ki, cəza siyasətinin humanistləşdirilməsinə dair Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə qanunvericiliyə dekriminallaşdırma və s. ilə bağlı edilmiş dəyişikliklər nəticəsində 5 minə yaxın məhkum cəzadan tamamilə azad olunub və ya cəzası yüngülləşdirilib, istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı 25 faiz azalıb. Hazırkı Fərmanla isə dövlətimizin başçısının humanistliyinin növbəti təzahürü olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılıb. Bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə

öyrənilməklə Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrinə bütövlükdə 400-ə yaxın dəyişikliklərin edilməsi, o cümlədən bir çox əməllərin dekriminallaşdırılması, alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı qanun layihələri hazırlanıb.

Bunlarla yanaşı, Fərmanda nəzərdə tutulmuş tədbirlərin vaxtında, dürüst və dönmədən icrası ilə əlaqədar ədliyyə işçiləri və hakimlərlə yerlərdə müşavirələr keçirilərək, aidiyyəti tapşırıq və tövsiyələr verilir.

Ədliyyə Nazirliyi İcra xidmətinin fəaliyyətinə dair Fərmanla qarşıda qoyulmuş vəzifələrin icrası üzrə bütün yerli icra qurumları rəhbərlərinin və əməkdaşlarının iştirakı ilə ümumrespublika müşavirəsi keçirilib, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının qətiyyətlə alınmasına dair konkret addımlar atılıb, kobud pozuntulara yol verən icra məmurları barəsində ciddi tədbirlər görülüb.

Fərmanın icrası ilə bağlı, həmçinin icra xidmətində iş həcminin kəskin artaraq ötən il az qala 900 minə çatması ilə əlaqədar məhkəmələrin və digər orqanların qərarlarının icrasının alternativ mexanizmləri, habelə icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı beynəlxalq praktika və müxtəlif dövlətlərin bu sahədə qanunvericiliyi öyrənilib və təcrübələri ilə yerində tanış olunub.

Qeyd edilən məlumatların ümumiləşdirilməsi və aparılmış təhlillər nəticəsində məhkəmə qərarlarının icrası işinin daha səmərəli təşkili məqsədilə ölkəmizdə hazırkı mərhələdə alternativ icra mexanizmi kimi özəl icra institutunun pilot layihə qaydasında tətbiqi mümkün hesab olunub və bu barədə müvafiq təkliflər verilib.

Eyni zamanda, Fərmanın icrası çərçivəsində məhkəmə ekspertizası fəaliyyətinin alternativ mexanizmləri, o cümlədən ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi ilə bağlı qanunvericilik və mövcud təcrübə ətraflı təhlil olunub, bir sıra qabaqcıl Avropa dövlətlərinin təcrübəsi nəzərdən keçirilib, bəzi ölkələrdə özəl ekspertiza fəaliyyətinin təşkili yerində öyrənilib.

Məhkəmə ekspertizası işinin beynəlxalq standartlar səviyyəsində müasirləşdirilməsi, ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi, ekspertiza təyin edilməsi ilə bağlı tərəflərin hüquqlarının genişləndirilməsi, həmçinin ekspertizanın özəl qurumlar tərəfindən həyata keçirilməsi, bununla bağlı müvafiq lisenziyaların verilməsi və digər mütərəqqi müddəaları nəzərdə tutan Qanun layihəsi hazırlanıb.

Artıq ölkəmizin məhkəmə sisteminin daha səmərəli fəaliyyətinin təmin edilməsində mühüm rol oynayacaq bir sıra yeni qanunlar dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilərək məhkəmə fəaliyyətinin səmərəliliyinin yaxşılaşdırılmasına xidmət edən mühüm məsələlər həllini tapıb.

Bu mənada sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə baxılması üçün ayrıca məhkəmənin təsis edilməsi xüsusi vurğulanmalıdır. Qeyd edilməlidir ki, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması dövlətimizin başçısının daim diqqət mərkəzində olub. Bu problemi həll etmək və məhkəmələri insanlara, hüquqi şəxslərə yaxınlaşdırmaq üçün son dövrlər xeyli iş görülüb, məhkəmə sisteminin quruluşunda önəmli dəyişikliklər edilib.

Hələ 2007-ci ildə respublikamızın regionlarında apelyasiya və iqtisad məhkəmələri, 2011-ci ildə isə digər regional məhkəmələr, habelə insan hüquqlarının təminatında mühüm rol oynayan inzibati ədliyyə institutu yaradılıb, bütün bölgələrdə inzibati-iqtisadi məhkəmələr formalaşdırılıb.

Məhkəmələrdə ixtisaslaşmanın aparılması bu gün bütün dünyada ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ən faydalı üsullardan biri hesab olunur. Ölkəmiz də bu istiqamətdə zəruri addımlar atır. Məsələn, bu gün Bakı şəhərinin bütün və bəzi digər rayon (şəhər) məhkəmələrində cinayət və mülki sahədə işlərə baxılması üzrə hakimlər arasında ixtisaslaşma aparılıb. Həmçinin yetkinlik

yaşına çatmayanlar xüsusilə həssas təbəqə olduğundan onlar tərəfindən törədilən cinayətlərə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsində ayrıca tərkiblər yaradılıb.

Bu proses hazırda da davam edir. Xüsusilə iqtisadiyyatımızın inkişafının bugünkü səviyyəsində sahibkarlıqla bağlı mübahisələrə baxılması işinin təkmilləşdirilməsi məqsədilə bu fəaliyyətlə əlaqədar yeni ixtisaslaşmış məhkəmənin yaradılması artıq zamanın tələbinə çevrilib.

Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həlli zamanı operativliyin təmin olunması məqsədilə dövlətimizin başçısının təşəbbüsü ilə ötən ilin dekabrında qanunvericiliyə əsaslı dəyişikliklər edilib, o cümlədən iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada, yalnız "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması müəyyən edilib.

Sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına xidmət edən bu tədbirlərin davamı olaraq möhtərəm Prezident Fərmanda sahibkarlıq fəaliyyəti ilə əlaqədar mübahisələrə baxan ayrıca məhkəmələrin yaradılması ilə bağlı məsələ müəyyənləşdirib. Eyni zamanda, sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha operativ və səmərəli həllinin təmin edilməsi, məhkəmə icraatının effektivliyinin artırılması məqsədilə Fərmanda mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlil edilməsi, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun təkmilləşdirilməsi ilə bağlı ali və apelyasiya məhkəmələri, Vəkillər Kollegiyası, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Ədliyyə, İqtisadiyyat və Vergilər nazirliklərinə tövsiyə və tapşırıqlar verilib.

Bununla əlaqədar beynəlxalq təcrübə öyrənilib, müxtəlif dövlətlərdə mövcud olan belə məhkəmə modelləri nəzərdən keçirilib və ölkəmiz üçün ən məqbul təcrübə seçilib.

Artıq bu sahədə müvafiq qanunvericilik aktları qəbul edilib. Yeni qanunvericiliyə uyğun olaraq sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və bu sahədə işlərə daha çevik baxılmasının təmin edilməsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr - kommersiya və ayrıca inzibati məhkəmələr təsbit olunub. Azərbaycan Prezidentinin 2019-cu il 19 iyul tarixli Sərəncamı ilə mövcud inzibati-iqtisadi məhkəmələr ləğv edilməklə Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəkidə yeni Kommersiya və ayrıca İnzibati məhkəmələr yaradılıb. Hazırda dövlətimizin başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq həmin məhkəmələrin yurisdiksiyasının müəyyən edilməsi, müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür.

Yeni məhkəmələrdə konkret sahədə dərin hüquqi bilik və təcrübəsi olan hakimlərin fəaliyyət göstərməsi nəzərdə tutulur. Bu da işlərə daha ixtisaslı, peşəkar baxılmasına, onların daha dolğun, hərtərəfli araşdırılmasına şərait yaradacaqdır. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan mülki mübahisələrə yeni yaradılan kommersiya məhkəmələri, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlar ilə mübahisələrinə, o cümlədən vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə isə inzibati məhkəmələr baxacaqdır.

2020-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq kommersiya və inzibati məhkəmələr bu sahədə məhkəmə statistikasının təhlil edilməsində və məhkəmə təcrübəsinin öyrənilməsində də mühüm rol oynayacaq.

Yeni qanunvericiliyə uyğun olaraq sahibkarlıqla bağlı mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmələrin yaradılması, habelə ali və apelyasiya məhkəmələrində müvafiq kollegiyaların təsis edilməsi, məhkəmə aidiyyəti üzrə mübahisələrin həllinin daha təkmil, yeni mexanizminin yaradılması ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına, məhkəmələrdə süründürməçilik hallarının qarşısının alınmasına əlavə təkan olacaqdır.

Məhkəmə hakimiyyətinin müstəqilliyinin real təmin olunması, hakimlərin fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması da məhkə-

mə sisteminin səmərəliliyində mühüm amillərdir.

Bu məqsədlə Fərmanda, ilk növbədə, bütün məhkəmələrin sədrlərinə və hakimlərə tövsiyə edilib ki, məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmləndirilməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etsinlər.

Qeyd olunmalıdır ki, məhkəmə hakimiyyətinin müstəqilliyi məsələsi bütün dövlətlərdə müstəsna əhəmiyyət kəsb edir. Müxtəlif, hətta inkişaf etmiş Avropa ölkələrində məhkəmə fəaliyyətinə kənar müdaxilələr və digər təzyiq faktları ciddi narahatlıq doğurur, bu sahədə mənfi meyillərin aradan qaldırılması yolları Avropa ədliyyə nazirlərinin konfranslarında mütəmadi müzakirə olunur.

Dövlətimizin başçısının tövsiyələrinə uyğun olaraq bu sahədə əlavə təsirli mexanizmlərin yaradılması, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsinə mane olmağa, kənar şəxslər tərəfindən məhkəmə fəaliyyətinə hər hansı təzyiq və ya qeyri-qanuni təsir etməyə görə cəzaların sərtləşdirilməsi, məhkəmə icraatına müdaxilənin və məhkəməyə hörmətsizlik göstərilməsinin yolverilməzliyi ilə bağlı müvafiq qanun layihəsi hazırlanıb.

Həmçinin hakimlərin fəaliyyətinə müdaxilə ilə bağlı özlərinin Məhkəmə-Hüquq Şurasına məlumat verməsi də belə halların qarşısının alınmasına yönələn əlavə vasitədir.

Bununla əlaqədar Fərmanla verilmiş tövsiyələrə əsasən hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər mənfi halların aradan qaldırılması ilə bağlı Məhkəmə-Hüquq Şurasında "Qaynar xətt" təşkil olunub və Şuraya birbaşa və maneəsiz müraciət etmək imkanları yaradılıb.

Şübhəsiz ki, məhkəmə sisteminin daha səmərəli fəaliyyət göstərməsi, hakimlərin obyektivliyinin, qərəzsizliyinin, müstəqilliyinin təmin olunması üçün onların maddi təminatı da mühüm əhəmiyyət kəsb edir.

Məhz ona görə Fərmana uyğun olaraq bu ərəfədə "Məhkəmələr və hakimlər haqqında" Qanuna dəyişikliklər edilərək hakimlərin maddi təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, o cümlədən bütün hakimlərin aylıq vəzifə maaşları həcmində vəzifə maaşına əlavə ödənilməsi müəyyən edilib, digər təminatlar nəzərdə tutulub.

Eyni zamanda, məhkəmələrdə baxılan işlər üzrə dövlət rüsumunun dərəcələrinin verilən iddiaların qiymətinə uyğun diferensiasiyası və həmin rüsumların müəyyən hissəsinin məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə də yönəldilməsi üzrə müvafiq layihələr hazırlanıb.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində hakimlərin məsuliyyət hissinin artırılması, hər bir qanun pozuntusuna barışmaz münasibətin aşılanması da az əhəmiyyət kəsb etmir. Dövlətimizin başçısının ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tapşırıqları bu sahədə fəaliyyətin yeni çağırışlara uyğun daha yüksək səviyyədə təşkil olunmasını şərtləndirir.

Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, icra intizamının möhkəmləndirilməsi, qanun pozuntusu, süründürməçilik və digər mənfi halların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülür.

Paytaxtda və bölgələrdə bütün məhkəmə instansiyaları üzrə məhkəmə sədrlərinin və hakimlərin iştirakı ilə zona müşavirələri keçirilərək ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər, məhkəmə fəaliyyətində mövcud problemlər, yol verilən nöqsanlar və onları doğuran səbəblər ətraflı təhlil olunur, mənfi halların yolverilməzliyi qəti şəkildə diqqətə çatdırılır.

Təkcə ötən il vətəndaşlarda haqlı narazılıq doğuran pozuntulara görə Şura tərəfindən 14 hakimin fəaliyyəti qanunvericiliklə nəzərdə tutulmuş qaydada qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib. 4 məhkəmə sədri aşağı işə keçirilib, 2 nəfərin tutduğu vəzifədən azad edilməsi, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi barədə qərarlar qəbul olunub.

Eyni zamanda, dövlətimizin başçısının hüquq pozuntularına və Hakimlərin Etik Davranış Kodeksinin pozulması hallarına yol verən hakimlərin intizam məsuliyyətinin labüdlüyünün təmin edilməsi barədə tövsiyələrinə uyğun olaraq, təkcə son aylar ərzində 40 hakim barədə intizam icraatları başlanılıb, 1 hakimin səlahiyyətlərinə xitam verilib, 4 hakim tutduğu vəzifədən azad olunub. Həmçinin 2 hakim barədə materiallar Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib, onlardan biri barədə artıq məhkəmənin qərarı ilə həbs qətimkan seçilib.

Dövlətimizin başçısının tövsiyələrinə uyğun olaraq hakimlərin və məhkəmə sədrlərinin məsuliyyət hissinin artırılmasında, şəffaflığın və qeyri-prosessual münasibətlərin yolverilməzliyinin təmin edilməsində digər vasitələrdən də istifadə edilir. Bu məqsədlə Şurada Korrupsiyaya qarşı mübarizə və Məhkəmə monitorinqi, İnformasiya Texnologiyaları və İnnovasiyalar üzrə xüsusi strukturlar yaradılıb. Onlar tərəfindən məhkəmələrdə mütəmadi monitorinqlər keçirilir, "Qaynar xətt" əlaqə mərkəzinə daxil olan və digər müraciətlər yerində araşdırılır, qeyri-prosessual münasibətlərə şərait yaradan və vətəndaşlarda haqlı narazılıq doğuran pozuntular aradan qaldırılmaqla, yol verilən nöqsanlar hakimlərin və məhkəmə sədrlərinin diqqətinə çatdırılır.

Artıq yeni qurumlar tərəfindən qısa müddət ərzində 20-dən çox məhkəmədə monitorinqlər keçirilib, yol verilən pozuntular 60-dan çox hakimin və məhkəmə sədrinin diqqətinə çatdırılıb, daha kobud pozuntularla bağlı isə intizam icraatları başlanılıb. Bu sahədə işlər intensiv davam etdirilir.

Eyni zamanda, vətəndaşlar üçün əlverişli şərait yaradılması, yol verilən nöqsan və çatışmazlıqların yerində, təxirəsalmadan aradan qaldırılmasının təmin edilməsi məqsədilə Şura tərəfindən bilavasitə məhkəmələrdə qəbulların keçirilməsi təcrübəsi yaradılıb.

Fərmanda qarşıya qoyulmuş məsələlərin icrası üzrə, həmçinin hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığın artırılması, bu sahədə tətbiq edilən meyarların təkmilləşdirilməsi məqsədilə Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Metodologiyası, habelə məhkəmələrdə işin düzgün və səmərəli təşkilinə, etik davranış və digər məsələlər üzrə peşəkar monitorinqlərin aparılmasına dair Qaydalar hazırlanıb. Yuxarı instansiya məhkəmələrinin təcrübəli hakimləri və "ASAN xidmət" könüllüləri Şuranın fəaliyyətinə cəlb olunublar.

Lakin o da nəzərə alınmalıdır ki, hakimlərin fəaliyyətində bir çox çatışmazlıqlar iş yükünün hədsiz çoxluğu və hakim ştatlarının sayının az olması ilə bağlıdır. Ölkəmizin intensiv sosial-iqtisadi inkişafı, mülki dövriyənin sürətlə artması məhkəmələrə müraciətlərin sayının da dəfələrlə artması ilə müşayət olunub.

Bununla əlaqədar 2006-cı ildən etibarən ölkəmizdə hakim ştatlarının sayı 2 dəfə artırılaraq 600-ə çatdırılıb. Hər bir hakim üçün beynəlxalq təcrübəyə uyğun olaraq köməkçi ştatı ayrılıb. Eyni zamanda, həyata keçirilən məhkəmə islahatları çərçivəsində məhkəmə sisteminin yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hakimlər hesabına komplektləşdirilməsi də daim diqqət mərkəzində saxlanılıb.

Yeri gəlmişkən, Azərbaycanda hakimliyə namizədlərin seçim prosesi bu gün şəffaflığına görə Avropada örnək kimi dəyərləndirilir və ən mütərəqqi təcrübələr sırasındadır. Təsadüfi deyil ki, Avropa Şurası və Avropa İttifaqı digər üzv dövlətlərə ölkəmizin bu sahədə müsbət təcrübəsinə əsaslanmağı tövsiyə edib.

Hakimliyə namizədlərin bu mütərəqqi və şəffaf qaydalarla seçimi nəticəsində ötən illər ərzində 3400-dən çox namizəd sırasından 415 nəfər yüksək hazırlıqlı hüquqşünas seçilərək uzunmüddətli təlimlər, məhkəmələrdə, habelə xarici dövlətlərdə təcrübə keçdikdən sonra hakim vəzifələrinə təyin edilib.

Ötən ilin sonunda bu qaydalarla seçilmiş 108 nəfər hakimliyə namizədin dövlətimizin başçısı tərəfindən müxtəlif birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyinatı nəticəsində isə məhkəmə sistemində mövcud

vakansiyaların tam əksəriyyəti komplektləşib. Hakim korpusunun 70 faizini mütərəqqi qaydalarla seçilmiş gənc nəsil hakimlər təşkil edir.

Buna baxmayaraq əhaliyə nisbətdə Azərbaycanda hakim sayı Avropa ölkələri üzrə ən aşağı göstəricilərlə xarakterizə olunur.

Cənab Prezidentin məhkəmə islahatlarının dərinləşdirilməsi barədə Fərmanı ilə hakim ştatlarının daha 200 vahid, başqa sözlə üçdə bir qədər artırılması bu baxımdan xüsusi önəm daşıyır.

Bununla əlaqədar hakimliyə namizədlərin seçimində çevikliyin təmin edilməsi, habelə namizədlər üçün daha şəffaf və əlverişli şəraitin yaradılması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi Qaydalarına müvafiq dəyişikliklər edilib.

Hakimlərin Seçki Komitəsində isə namizədlərin sənəd qəbulunun davamlı olması, test imtahanının müasir üsullarla, Dövlət İmtahan Mərkəzinin imkanlarından istifadə etməklə, hər bir namizəd üçün fərdi kompüterlər vasitəsilə, operativlik üçün isə təxminən hər 200 nəfərlik qruplarla keçirilməsi barədə qərar qəbul olunub. Artıq cari ilin iyul ayının 25-dən növbəti müsabiqə elan olunub.

Dövlətimizin başçısı tərəfindən yeni ayrılmış hakim ştatlarının bu müsabiqələrin nəticəsində komplektləşdirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, hakimlərin iş yükünün digər vasitələrlə azaldılması məsələsi də daim diqqətdə saxlanılır. Mütəmadi təhlillər aparılır, istər qanunvericilik, istərsə də müxtəlif institusional tədbirlər həyata keçirilir.

Çox uzağa getmədən son dövrlər həyata keçirilən qanunvericilik tədbirlərinə nəzər salsaq görərik ki, icra sənədi üzrə icraata xitam verilməsi və dayandırılması səlahiyyətinin məhkəmələrdən alınaraq icra məmurlarına həvalə edilməsi məhkəmələrin işini xeyli yüngülləşdirib. Həmçinin ötən ildən nümayəndəlik institutunun məhdudlaşdırılması öz növbəsində məhkəmələrə verilən iddiaların peşəkar hüquqşünaslar tərəfindən daha mükəmməl hazırlanmasına rəvac verib, bu da əsassız iddiaların azalmasına gətirib çıxarıb.

Cari ildən isə mülki-prosessual qanunvericiliyə edilmiş dəyişikliklərin qüvvəyə minməsi ilə əlaqədar əmr icraatları üzrə işlərə məhkəmədənkənar elektron qaydada baxılması, bəzi kateqoriya işlər üzrə sadələşdirilmiş icraatın təsbit olunması iş yükünün daha da azalmasına əsaslı zəmin yaradıb.

Digər mühüm yenilik isə cari ildə "Mediasiya haqqında" Qanunun qəbul edilməsi, bununla da mülki xarakterli mübahisələrin məhkəmədən kənar həlli mexanizmlərinin yaradılmasıdır. Bu institutun müstəsna əhəmiyyətini nəzərə alan möhtərəm Prezidentimizin Fərmanında Ədliyyə Nazirliyinə mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi tapşırılıb və artıq bu istiqamətdə işlər aparılmaqdadır. Fərmana əsasən, həmçinin xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair tədbirlər görülür.

Ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə yaradılmış "Elektron məhkəmə" informasiya sisteminin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə insanlar artıq məhkəməyə gəlmədən, elektron formada müraciət etmək imkanı əldə ediblər. Hər bir kəs "şəxsi elektron kabinet"ə sahib olmaqla məhkəməyə sənədləri elektron formatda ötürə, məhkəmə işinin materialları ilə ətraflı tanış ola, proseslər barədə məhkəməyə gəlmədən xəbər tuta bilərlər.

Eyni zamanda, sistemin məhkəmə proseslərinin audioyazılışının aparılması, elektron sənəd dövriyyəsinin təşkili, yekun məhkəmə qərarlarının elektron dərci, müxtəlif meyarlar əsasında axtarış aparılması və digər məziyyətləri, sözsüz ki, hakimlərin də

işinin asan və səmərəli təşkilinə öz real müsbət təsirini göstərir.

Ötən dövrdə sistemin tətbiqi üzrə məhkəmələr zəruri infrastrukturla təchiz olunub, Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində köhnə məhkəmə binalarında da uyğunlaşdırma işləri aparılaraq lazımi avadanlıq quraşdırılıb. Bu günə artıq 111 məhkəmənin 60 faizi bu sistemə qoşulub və bir çox komponentləri, o cümlədən Məhkəmələrin Vahid Portalı, Məhkəmə Prosesi İştirakçısının Şəxsi Kabineti, Elektron İcra, Məhkəmə Qərarlarının Vahid Bazası və bir sıra alt sistem və modulları hazırda uğurla tətbiq olunur.

Dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanında elektron məhkəmə ilə respublikanın bütün ərazisinin əhatə olunmasına və sistemin bütövlükdə ahəngdar işləməsinin təmin olunmasına yönəlmiş tapşırıqlar verilib. Artıq həmin tapşırıqların icrası üzrə zəruri tədbirlər görülür.

O da qeyd olunmalıdır ki, bu gün təkcə məhkəmə sistemində deyil, ədliyyənin bütün sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. Qısa olaraq yalnız bəzi yenilikləri diqqətə çatdırmaq istərdim.

Belə ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar nazirlik tərəfindən xüsusi "Elektron Notariat çantası" hazırlanıb. Elektron notariat informasiya sisteminə və aidiyyəti məlumat banklarına birbaşa çıxışı olan bu "çanta" vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

"Elektron Ədliyyə köşkü" də maraqlı yenilikdir. Yalnız Azərbaycanda mövcud olan bu "köşk" vasitəsilə təxirəsalınmaz hallarda məsafədən notariat hərəkətləri aparmaq mümkündür. Bu "köşk"lər sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılır. Bu qurğular videoəlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verir. Belə "köşk" hava limanında quraşdırılaraq artıq 4 aydır ki, istifadəyə verilib.

Həmçinin Azərbaycanın məhsulu olan "Mobil Notariat qovluğu"nu qeyd etmək istərdim. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi təmin edilir.

Dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsi barədə 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən azadlığın məhdudlaşdırılması kimi yeni cəza növü müəyyən edilib və elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. Qısa müddətdə bu cihazların ölkədə istehsalı təşkil olunub və bir il ərzində 1500 məhkuma elektron qolbaqlar tətbiq edilib.

Sadaladığım bu innovasiyalar qısa müddət ərzində tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa da səbəb olub. Elə bu ay Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri geniş nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib, bu innovasiyalarla tanış olub və ölkəsinin Azərbaycan təcrübəsindən bəhrələnməsinin əhəmiyyətini bildirib.

Sonda qeyd etmək istərdim ki, ölkə Prezidentinin rəhbərliyi ilə respublikamızın hərtərəfli tərəqqisi, vətəndaşların rifahının yaxşılaşdırılması üzrə həyata keçirilən mütərəqqi tədbirlər çərçivəsində verilmiş bu Fərman ədliyyə və məhkəmə sisteminin inkişafında mühüm mərhələ olmaqla, bizim məsuliyyət hissimizi daha da artırır, qarşımızda mühüm vəzifələr qoyur.

Bu vəzifələrin öhdəsindən yüksək tələblər səviyyəsində gəlmək üçün bizi hələ gərgin əmək gözləyir. Əminəm ki, hər birimiz dövlət başçısının qarşıda qoyduğu bü mühüm vəzifələri şərəflə və böyük əzmkarlıqla icra edəcəyik.

**Fikrət Məmmədov,**
**Azərbaycan Respublikasının**
**Ədliyyə Naziri,**
**Məhkəmə-Hüquq**
**Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə**
**müşaviri**

## Sumqayıtda Fərmanla qarşıya qoyulan vəzifələrə dair müşavirə





**İyulun 4-də Ədliyyə naziri Fikrət Məmmədov Sumqayıta səfəri çərçivəsində ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.**

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini qeyd edərək bu mühüm sənədin ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu, bu sahədə islahatların yeni inkişaf mərhələsinə keçdiyini vurğulayıb, kompleks qanunvericilik, institusional və praktiki tədbirlər nəzərdə tutan proqram xarakterli Fərmandan irəli gələn vəzifələrin vaxtında, dürüst və dönmədən icrasının təmin olunmasını diqqətə çatdırıb.

Müşavirədə, həmçinin ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi ilə bağlı cari ildə görülmüş işlərə toxunulub, qarşıda duran vəzifələr müzakirə olunub, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

Eyni zamanda, Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Sumqayıt şəhərində inşa olunan 5 məhkəmənin yerləşəcəyi yeni məhkəmə kompleksinin tikintisinin gedişatı ilə tanış olunub, problemlərlə maraqlanılıb. Müasir tələblərə uyğun inşa olunan beş mərtəbədən ibarət məhkəmə binasının ictimai və inzibati zonalara bölünməsi, həmçinin, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastrukturun quraşdırılması nəzərdə tutulub. Həmçinin, Sumqayıt şəhərinin hüquq institutlarının yenilənmiş infrastrukturu ilə tanış olunub.

## Fərmanın icrası üzrə görülən işlərin Məhkəmə-Hüquq Şurasında müzakirəsi

**Məhkəmə-Hüquq Şurasının iyulun 12-də keçirilmiş iclasında dövlət başçısının "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı üzrə görülən işlər müzakirə edilib.**

Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi qüdrətinin daim artdığını, sosial yönümlü mühüm qərarların qəbul olunduğunu vurğulayıb, ölkəmizin hərtərəfli inkişafına uyğun olaraq məhkəmə fəaliyyətinin də müasirləşdirildiyini qeyd edib.

Bildirilib ki, Fərmanın icrası üzrə məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, məhkəmə fəaliyyətinə kənar müdaxilələrin qarşısının

alınması və s. məsələlər üzrə qanunvericiliyə əsaslı dəyişikliklər nəzərdə tutan mühüm layihələr hazırlanaraq təqdim olunub.

Artıq bəzi qanun layihələri bu ərəfədə Milli Məclis tərəfindən qəbul edilib. Yeni qanunvericiliyə uyğun olaraq sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması, sahibkarlıqla bağlı mübahisələrə bu sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən və daha çevik baxılmasını təmin etmək məqsədilə yeni ixtisaslaşmış məhkəmələrin - Kommersiya məhkəmələrinin yaradılması təsbit olunub. Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşmasına əlavə təkan olacaq bu məhkəmələrdə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə baxılması nəzərdə tutulur.

Həmçinin, hakimlərin müstəqilliyinin təmin edilməsi məqsədilə onların maddi təminatının yaxşılaşdırılmasına, məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edən digər mühüm qanunlar qəbul edilmişdir. Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş bu qanunlar ölkəmizin məhkəmə sisteminin daha effektiv fəaliyyətinin təmin edilməsində mühüm rol oynayacaqdır.

Tədbirdə Fərmana uyğun olaraq hakim ştatlarının sayının 200 vahid artırılmasının iş yükünün azalmasına, bununla da süründürməçilik hallarının qarşısının alınmasına, işlərə vaxtında və keyfiyyətlə baxılmasına xidmət edəcəyi vurğulanıb. Ölkəmizdə tətbiq olunan hakimlərin seçilməsi Qaydasının Avropada ən şəffaf və obyektiv seçim üsulu kimi qiymətləndirildiyi bildirilib, müasir İKT-lər tətbiq olunmaqla namizədlər üçün daha əlverişli şəraitin yaradılması və çevikliyin təmin olunması məqsədilə Qaydalara müvafiq dəyişikliklər edilib.

Şurada hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə yaradılmış "Qaynar Xətti" fəaliyyəti təqdir olunub. Qeyd edilib ki, Fərmanın icrası üzrə yaradılmış monitorinq sektorları tərəfindən məhkəmələrdə mütəmadi monitorinqlər keçirilərək qeyri-prosessual münasibətlərə şərait yaradan və vətəndaşların haqlı narazılığını doğuran pozuntular dərhal aradan qaldırılmaqla, yol verilən nöqsanlar hakimlərin və məhkəmə sədrlərinin diqqətinə çatdırılıb, daha kobud pozuntularla bağlı isə intizam icraatları başlanılıb.

Vətəndaşlar üçün əlverişli şərait yaradılması və yol verilən nöqsan və çatışmazlıqların yerində aradan qaldırılmasının təmin edilməsi məqsədilə bilavasitə məhkəmələrdə qəbulların keçirilməsi təcrübəsinin yaradılması təqdir olunaraq, qəbul günləri barədə əvvəlcədən internet resurslarında müvafiq elanların yerləşdirilməsi məqsədəmüvafiq bilinib.

Fərmanda qarşıya qoyulmuş vəzifələrin icrası üzrə həmçinin, hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığın daha da artırılması, bu sahədə tətbiq edilən meyarların təkmilləşdirilməsi məqsədilə Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Metodologiyasının yeni layihəsi, habelə məhkəmə monitorinqlərinə dair qaydalar hazırlanıb.

Eyni zamanda iclasda Fərmandan irəli gələn məsələlər üzrə əlavə tədbirlər müəyyən olunub, təcrübəli hakimlərin və könüllülərin Şuranın fəaliyyətinə daha geniş cəlb olunması, intizam icraatları üzrə qərarların profilaktik təsirinin gücləndirilməsi, xarakterik və digər nöqsanların qarşısının alınması məqsədilə onların yerində hakimlərlə müzakirəsinin təşkili qərara alınıb.

Şurada qanunvericiliyin tələblərinin kobudcasına pozulmasına və korrupsiyaya şərait yaradan hallara, süründürməçiliyə və digər pozuntulara yol verdiklərinə görə bir sıra hakimlər intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Gəncə İnzibati-iqtisadi məhkəməsinin sədri Natiq Abbasovun və hakimi Kamil Rzayevin, Göygöl Rayon məhkəməsinin hakimi Rafiq Məmmədovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərarlar qəbul edilib.

# Ədliyyə Nazirliyində işin təkmilləşdirilməsinə yönəlmiş əməliyyat müşavirəsi

**Ədliyyə Nazirliyində işin təkmilləşdirilməsinə yönəlmiş əməliyyat müşavirəsi keçirilib.**

Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş əməliyyat müşavirəsində dövlətimizin başçısının ədliyyə və məhkəmə fəaliyyətinin yeni çağırışlara uyğun təkmilləşdirilməsi barədə tapşırıqlarının və nazirlik qarşısında qoyulmuş mühüm vəzifələrin yerinə yetirilməsi, o cümlədən cari ildə görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı bütün struktur qurumlarda aparılmış müzakirələrin nəticələri barədə məlumat verilib. Ədliyyə orqanlarında əmək və icra intizamının gücləndirilməsi, iş üsul və vasitələrinin təkmilləşdirilməsi, struktur qurumları arasında işin əlaqələndirilməsinin yaxşılaşdırılması, strateji planlaşdırmanın düzgün həyata keçirilməsi, tədbirlər planlarının keyfiyyətli icrası məsələlərinə toxunulub. Həmçinin icra intizamının yaxşılaşdırılması, xüsusən yuxarı dövlət orqanlarının tapşırıqlarının vaxtında və keyfiyyətli icrası, mövcud çatışmazlıqlar və onları doğuran səbəblər təhlil olunmaqla aradan qaldırılması barədə konkret tapşırıqlar verilib.

Eyni zamanda, müşavirədə ədliyyə sahəsində islahatların yeni mərhələsinin əsasını qoymuş dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının mütəşəkkil və dürüst icrası üzrə davam olunan tədbirlər, o cümlədən cəza siyasətinin humanistləşdirilməsi, mülki prosessual qanunvericiliyinin təkmilləşdirilməsi, mübahisələrin məhkəmədənkənar həlli və s. məsələlərlə bağlı yerinə yetirilmiş işlər barədə məlumat verilib. Regional kommersiya və inzibati məhkəmələrinin yaradılması, hakimlərin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmə fəaliyyətinin təminatının yaxşılaşdırılması ilə əlaqədar qanunvericiliyə edilmiş dəyişikliklərin bu sahədə işin səmərəliliyinin artırılmasında əhəmiyyəti qeyd olunub.

Yeni təşkil edilən məhkəmələrin fəaliyyətinin təmini üçün zəruri təşkilati tədbirlərin görülməsi, Məhkəmə-Hüquq Şurası ilə birgə təhlillər əsasında qısa müddətdə təkliflərin verilməsi tapşırılıb. Məhkəmələrdə işin təşkili və icra intizamının yaxşılaşdırılması, vətəndaşların haqlı narazılığını doğuran pozuntuların aradan qaldırılması, bu məqsədlə monitorinqlərin intensivləşdirilməsi və digər tədbirlərin görülməsinin vacibliyi nəzərə çatdırılıb.

Müşavirədə, həmçinin Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsi barədə göstərişlərinə uyğun olaraq, bu sahədə görülmüş kompleks tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi qeyd olunub, məhkəmələr tərəfindən azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların tətbiqinə son dövrdə üstünlük verilməsi və bu müsbət tendensiyanın cari ildə davam etməsi vurğulanıb. Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, habelə alternativ cəzaların, o cümlədən azadlığın məhdudlaşdırılması cəzasının icrası, yerli istehsal olunan elektron qolbaqların 1500-dək məhkuma tətbiq edilməsi bildirilib, Probasiya Xidmətinin fəaliyyətinin səmərəsinin artırılması, yerlərdə probasiya nəzarətinin gücləndirilməsi məqsədilə təşkilati işlər müzakirə olunub.

Tədbirdə, həmçinin ədliyyə fəaliyyətinin digər prioritet istiqamətləri üzrə işin təkmilləşdirilməsi məsələləri müzakirə edilib, müvafiq tapşırıqlar verilib.

# İnsan Hüquqları üzrə Avropa komissarı ilə Ədliyyə Nazirliyində görüş




**İyulun 11-də Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşüb.**

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, regional məhkəmələrin fəaliyyəti barədə məlumat verib, bu sahədə islahatların dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələdə davam etdirildiyini qeyd edib.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq səfərin məqsədinin insan haqlarının, o cümlədən məcburi köçkünlərin hüquqlarının təmini sahəsində dəstək göstərmək olduğunu bildirib, məhkəmə-hüquq sistemindəki islahatları və yenilikləri maraqla qarşılayıb.

Səfər zamanı penitensiar müəssisələrə baş çəkmək üçün yaradılmış imkana görə minnətdarlığını bildirən xanım D.Miyatoviç Azərbaycan tərəfinin "açıq qapı" siyasətini qarşılıqlı əməkdaşlığın və etimadın yaxşı təzahürü kimi dəyərləndirib, cinayət qanunvericiliyinin dekriminallaşdırılması məsələsinə toxunub.

Komissar cəza siyasətinin humanistləşdirilməsinə dair dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər edilərək bir sıra əməllərin dekriminallaşdırıldığı, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi barədə məlumatlandırılıb.

Görüşdə həmçinin, qanunvericiliyin təkmilləşdirilməsi, Avropa Məhkəməsinin qərarlarının icrası, bölgələrdə hüquq institutlarının inkişafı, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkillərin Ədliyyə Akademiyasında tədrisi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak ediblər.

# Avropa Şurası ilə hüquqi sahədə layihələr təşviq olunur





**Bakıda Avropa Şurasının və Avropa İttifaqının "Yaxşı idarəçilik üçün tərəfdaşlıq" birgə proqramı çərçivəsində "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" adlı yeni layihənin təqdimatında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropa Şurası Ədliyyə və Hüquqi Əməkdaşlıq bölməsinin rəhbəri xanım Hanne Yunkerin başçılıq etdiyi nümayəndə heyəti iyulun 1-də Ədliyyə Nazirliyində olub.**

Nazir müavini Azər Cəfərov ilə keçirilmiş görüşdə Avropa Şurasının Ədliyyə Nazirliyi ilə səmərəli əməkdaşlığı vurğulanıb, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işlər diqqətə çatdırılıb, Avropa Şurası ilə məhkəmə-hüquq sahəsində birgə həyata keçirilən layihələrin müsbət nəticələri qeyd olunub, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə bu sahədə islahatların yeni mərhələyə keçdiyi bildirilib.

Xanım H.Yunker Avropa Şurasının Ədliyyə Nazirliyi ilə yaxşı əlaqələrinin olduğunu vurğulayıb, məhkəmə fəaliyyətinin effektivliyinin artırılması üzrə yeni layihəyə başlanıldığını bildirərək, layihənin dövlət başçısının qeyd olunan Fərmanının məqsədlərinə uyğun həyata keçiriləcəyini qeyd edib.

Qonaq həmçinin, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə görülən işləri təqdir edib, Azərbaycanın bu sahədə Avropada öncül olduğunu vurğulayaraq ölkəmizin nailiyyətlərini digər dövlətlərə aşılayacaqlarını bildirib.

Sonra Ədliyyə naziri Fikrət Məmmədov Avropa Şurasının nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığı qeyd edən nazir ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlarda Avropa Şurasının yaxından iştirakını qeyd edib, bu sahədə birgə həyata keçirilən layihələrin əhəmiyyətini vurğulayıb.

Ədliyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə edən qonaq məhkəmə-hüquq sistemindəki nailiyyətləri təqdir edib, bu sahədə islahatlara dəstək göstərməyə hazır olduğunu bildirib, yeni layihənin məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı əməkdaşlığın perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri səfir Zoltan Hernyes və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti Ramin Qurbanov iştirak ediblər.

# Azərbaycanın İkinci Könüllü Milli Hesabatı BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna təqdim olunub







BMT-nin Yüksək Səviyyəli Siyasi Forumu

**İyulun 15-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının İkinci Könüllü Milli Hesabatı uğurla təqdim olunub və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.**

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyətində ölkəmizin BMT yanında daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyev, Ədliyyə nazirinin müavini Toğrul Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov təmsil olunub.



Baş Nazirin müavini Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək, son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və ölkəmizdə məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi haqqında ətraflı məlumat verib.

Hazırda Azərbaycan regionda və MDB məkanında ilk, ümumiyyətlə isə dünyada ikinci hesabatı təqdim edən 14 ölkədən biridir.

***

Baş Nazirin müavini Əli Əhmədov BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunun dövlət və hökumət rəsmilərinin iştirak etdikləri Nazirlər Seqmentində də çıxış edərək Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq həyata keçirilən islahatlardan ətraflı bəhs edib.

***

Azərbaycan nümayəndə heyəti, həmçinin BMT Baş Assambleyasında əhali və inkişaf üzrə Qahirə konfransının 25 illiyi münasibətilə keçirilən yüksək səviyyəli iclasda iştirak edib. Tədbirdə Baş nazirin müavini məruzə ilə çıxış edib.

***

Azərbaycan Respublikasının nümayəndə heyətinin səfər çərçivəsində BMT-nin bir sıra yüksək səviyyəli rəsmiləri ilə ikitərəfli görüşləri olub.

BMT Baş katibinin birinci müavini xanım Amina Mohammed, BMT-nin İnkişaf



**BMT Baş katibinin birinci müavini xanım Amina Mohammed ilə görüş**

Proqramının (BMTİP) Baş direktoru Akim Stayner və onun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer, BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper, həmçinin Misirin Planlaşdırma, Monitorinq və Administrativ İslahatlar naziri xanım Hala Əlsaid, Norveçin Beynəlxalq inkişaf naziri Daq İnqe Ulstein və İsrailin Ətraf mühitin mühafizəsi naziri Zeev Elkin ilə keçirilmiş görüşlərdə Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün yüksək səviyyəli Milli Əlaqələndirmə qurumunun yaradılması, bu istiqamətdə görülən işlər, habelə regionda və MDB məkanında ilk ölkə olaraq Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunması yüksək qiymətləndirilib.

BMT Baş katibinin birinci müavini xanım Amina Mohammedlə görüşdə təşkilatın müxtəlif qurumları ilə səmərəli əməkdaşlığın davam etdirilməsi, bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalanması diqqətə çatdırılıb. Habelə xanım Amina Mohammed dayanıqlı inkişafın əsas məqsədlərindən birinin qanunun aliliyinin təşviqi və hamı üçün ədalət mühakiməsinə əlçatanlığın asanlaşmasının olmasını nəzərə alaraq, tədbirdə Azərbaycan



**BMTİP-in Baş direktorunun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer ilə görüş**

Respublikası nümayəndə heyətinin tərkibində Ədliyyə Nazirliyinin təmsil olunmasının vacibliyini qeyd edib.

Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycanda məhkəmə-hüquq islahatları: innovativ təcrübələr" adlı ingilis və rus dillərində broşüralar Yüksək Səviyyəli Siyasi Forumda tədbir iştirakçıları arasında paylanılıb. Həmin kitabça, həmçinin BMT-nin Baş Katibi Antonio Quterreşin yüksək diqqətinə çatdırılıb.

Təqdim olunan məlumatlarda ölkə başçısının “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanının ədalət mühakiməsinin möhkəmləndirilməsi istiqamətindəki mühüm rolu və əhəmiyyəti, bu qərarın qəbul edilməsi ilə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının əsasının qoyulduğu xüsusi vurğulanıb.

***

Tədbirlərdə və görüşlərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında bir daha məlumat verilib, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığı vurğulanıb, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi məlum qətnamələrinin indiyədək yerinə yetirilmədiyi bildirilib.



**BMT Baş katibinin inkişaf və əlaqələndirmə məsələləri üzrə müşaviri Robert Piper ilə görüş**

# Azərbaycan Notariat Palatasının təsis yığıncağı keçirilib











**Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlara uyğun olaraq notariat xidmətinin təkmilləşdirilməsi çərçivəsində notariuslar tərəfindən qanunvericilikdəki yeniliklərin mütəmadi öyrənilməsinə və mütərəqqi təcrübələrə yiyələnməsinə, onların beynəlxalq əlaqələrinin genişlənməsinə böyük əhəmiyyət verilir.**

Bu sahədə notariusların fəaliyyətinin əlaqələndirilməsində, onların peşə hazırlığının artırılması məqsədilə təlimlərin təşkilində, notariat sahəsində müsbət təcrübələrin təşviqində, digər dövlətlərin notariusları, həmçinin beynəlxalq təşkilatlarla səmərəli qarşılıqlı fəaliyyətin həyata keçirilməsində notariat palataları mühüm rol oynayır. Notariusların müstəqil özünüidarə orqanı olan notariat palataları dünyanın bir çox inkişaf etmiş ölkələrində fəaliyyət göstərir, həmçinin 80-dən çox dövlətin notariusları Beynəlxalq Notariat İttifaqı çərçivəsində uğurla əməkdaşlıq edirlər.

İyulun 8-də Bakıda Azərbaycan Notariat Palatasının təsis yığıncağı keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin rəhbərliyi və aidiyyəti məsul şəxsləri, ölkədə fəaliyyət göstərən notariuslar, vətəndaş cəmiyyəti institutlarının və KİV nümayəndələri iştirak ediblər.

Ədliyyə Nazirliyinin qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov bildirib ki, ölkəmiz üçün yeni olan Notariat Palatası notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə notariusların üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir. Palata Azərbaycanda xüsusi qaydada fəaliyyət göstərən notariusları özündə birləşdirir.

Təsis yığıncağında çıxış edən Ədliyyə nazirinin müavini Toğrul Musayev vurğulayıb ki, bu gün Azərbaycan notariat tarixində, hər bir notariusun həyatında və bütövlükdə hüquq ictimaiyyəti üçün əlamətdar hadisədir. Biz böyük inkişaf yolu keçən və daim təkmilləşməkdə olan notariat institutunun daha bir təntənəsinin, Azərbaycan Notariat Palatasının yaradılmasının şahidi oluruq.

Notariat Palatasının yaradılması ölkəmizdə də gündəlikdə olub, bu məqsədlə ötən dövrdə bir sıra addımlar atılıb,

o cümlədən beynəlxalq təcrübə öyrənilib, Beynəlxalq Notariat İttifaqı ilə uzun illər sıx əməkdaşlıq, digər dövlətlərin notariat palataları ilə səmərəli qarşılıqlı fəaliyyət, yaxşı təcrübələrin öyrənilməsi məqsədilə birgə tədris tədbirlərinin mütəmadi təşkili nəzərə alınaraq ölkəmiz üçün potensial Notariat Palatasına dair müvafiq təkliflər hazırlanıb.

Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə ötən ilin noyabrında, Azərbaycan ədliyyəsinin 100 illiyi ərəfəsində "Notariat haqqında" Qanuna edilmiş əsaslı dəyişikliklərlə Azərbaycanda Notariat Palatasının yaradılması təsbit olunub.

Toğrul Musayev son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı iqtisadi inkişafının təmin olunduğunu, əhalinin həyat şəraitinin xeyli yaxşılaşdığını, mülki dövriyyənin dairəsinin genişləndiyini vurğulayıb, bu münasibətlərin tənzimlənməsində vacib rol oynayan notariat sahəsində aparılan islahatlardan bəhs edib. Qeyd edib ki, ötən dövrdə notariat sahəsində mütərəqqi beynəlxalq təcrübə öyrənilməklə qanunvericilik təkmilləşdirilib, şəffaf prosedurlar əsasında yeni notariat korpusu formalaşdırılıb, xüsusi notariat institutu geniş tətbiq olunub. Notariat ofislərini vahid şəbəkədə birləşdirən "Elektron notariat" informasiya sisteminin istifadəyə verilməsi ilə notariat hərəkətlərinin rəsmiləşdirilməsi xeyli sadələşdirilib.

Eyni zamanda, ictimai xidmətlərin müasir modeli olan "ASAN xidmət çərçivəsində verilən sənədlərin yarıya qədəri həmin mərkəzlərdə fəaliyyət göstərən xüsusi notariusların rəsmiləşdirdiyi sənədlərdir.

Dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizin nailiyyətlərinin, o cümlədən ASAN xidmət təcrübəsinin dünyada böyük maraq doğurduğu diqqətə çatdırılaraq ötən ay Bakıda "2019 Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətlər Forumu və Mükafatlandırılması Mərasimi"nin keçirilməsi və Forumun açılışında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dərin və məzmunlu çıxışı xüsusilə qeyd olunub.

Həmçinin bildirilib ki, yeni qanunvericiliyə əsasən, notariat sahəsində mütərəqqi innovasiyalar, o cümlədən vətəndaşlara istənilən yerdə notariat hərəkətlərinin aparılmasına, təxirə salınmayan hallarda səyyar və məsafədən xidmətlərin göstərilməsinə, notariat fəaliyyəti barədə məlumatların əldə edilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası və mobil notariat qovluğu istifadəyə verilib. Bu sahədə islahatlara və yeniliklərə beynəlxalq maraq artır və bir çox dövlətlər Azərbaycanın müsbət təcrübəsindən bəhrələnirlər.

Notarius vəzifəsinin olduqca əhəmiyyətli peşə olduğunu bildirən nazir müavini diqqətə çatdırıb ki, hər bir notarius vəzifə borcunu ləyaqətlə icra



etməli, vətəndaşlara hər zaman layiqli xidmət göstərməli, qanunun aliliyini, "ASAN" standartlarını daim rəhbər tutmalı, notariusun etik davranış Kodeksinə dönmədən əməl etməlidir.

T.Musayev notariuslar arasında əlaqələndirmənin gücləndirilməsi, beynəlxalq notariat ittifaqı ilə əməkdaşlığın inkişaf etdirilməsi və notariusların təlimi sahəsində formalaşmış beynəlxalq təcrübə öyrənilməklə ölkəmizin tarixində ilk dəfə olaraq yaradılan Notariat Palatasının əhəmiyyətinə toxunub, palatanın notariat fəaliyyətinin səmərəli təşkilində, bu sahədə Ədliyyə Nazirliyinə kömək göstərilməsində önəmini qeyd edib, onun fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm və digər demokratik prinsiplər əsasında quraraq ölkəmizdə müasir tələblərə cavab verən notariat institutun inkişafına töhfə verəcəyinə və ictimaiyyətin böyük rəğbətini qazanacağına əminliyini ifadə edib.

Tədbirdə açıq səsvermə yolu ilə seçilmiş iclasın sədri, Sumqayıt şəhəri 1 saylı notariat ofisinin notariusu Əbülfəz Bünyatov gündəlikdə duran məsələlər barədə məlumat verib və gündəlik təsdiq olunub.

Sonra Palatanın nizamnaməsi yekdilliklə qəbul olunub və beləliklə Azərbaycan Notariat Palatası təsis edilib.

Daha sonra Palatanın idarəetmə orqanlarına seçkilər keçirilib, İdarə Heyətinin, Müşahidə Şurasının və Təftiş Komissiyasının tərkibi formalaşdırılıb. 2 saylı Bakı ASAN xidmət mərkəzi notariat ofisinin notariusu Hüseyn Məmmədov Azərbaycan Notariat Palatasının idarə heyətinin sədri seçilib.

Ədliyyə Nazirliyi Notariat idarəsinin rəisi Mehman Soltanov çıxış edərək hüquq sisteminin tərkib hissəsi olan, vətəndaşlarının hüquqlarının həyata keçirilməsində əvəzedilməz rol olan notariat sahəsində yeni bir təşkilatın - Notariat Palatasının yaradılmasının olduqca mühüm əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu gün notariat fəaliyyətinin qanunvericilik və informasiya texniki bazası təkmilləşdirilərək effektiv şəkildə günün tələblərinə uyğunlaşdırılıb. Belə bir şəraitdə notariat xidmətlərinin keyfiyyətinin artırılması da notariuslar üçün prinsipial məsələlərdən biridir.

Vətəndaş cəmiyyətinin nümayəndələri Rauf Zeyni, Əliməmməd Nuriyev çıxış edərək Notariat Palatasının ölkədə notariusların fəaliyyətinin səmərəliliyinin artırılmasına və təşkilatlanmasına, bu sahədə yaxşı təcrübələrin mübadiləsinə, onların beynəlxalq qurumlarla daha fəal əməkdaşlıq etməyə imkan yaradılmasına xidmət edəcəyini vurğulayıblar.

Sonda ən yüksək şəraitli notariat ofisi müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Tədbir Azərbaycanın dövlət himninin səsləndirilməsi ilə yekunlaşıb.

# “Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması” adlı yeni layihənin təqdimatı olub

**İyulun 2-də Bakıda Avropa Şurasının və Avropa İttifaqının "Yaxşı idarəçilik üçün tərəfdaşlıq" birgə proqramı çərçivəsində "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" adlı yeni layihənin təqdimatı keçirilib.**

Layihənin məqsədi Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətlərinin milli səviyyədə tətbiqi yolu ilə Azərbaycan məhkəmələrinin işinin səmərəliliyini və keyfiyyətini artırmaq və məhkəmə qərarlarının icrası sisteminin hüquqi və institusional cəhətdən müasirləşdirilməsi və icra prosedurlarında iştirak edən qurumların potensialının güclən-





dirilməsi vasitəsilə qərarların icrasını təkmilləşdirməkdir. Layihənin 2021-ci il avqustun 31-dək davam etməsi nəzərdə tutulur. Ümumi büdcəsi 915 min avro olan layihə CEPEJ tərəfindən həyata keçirilir.

Avropa Şurasının Bakı Ofisinin rəhbəri səfir Zoltan Hernyes, Avropa Şurasının ədliyyə və hüquqi əməkdaşlıq bölməsinin rəhbəri xanım Hanne Yunker, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və digərləri çıxış edərək Azərbaycan ilə Avropa Şurası və Avropa İttifaqı arasında məhkəmə-hüquq sahəsində əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən və görülən tədbirlərdən danışıblar. Bildirilib ki, icra olunacaq yeni layihə Avropa Şurası, Avropa İttifaqı ilə Azərbaycan arasında məhkəmə-hüquq sahəsində qurulan səmərəli əməkdaşlığın inkişafına xidmət edəcək, məhkəmə sisteminin səmərəliliyinin daha da artırılmasına səbəb olacaq. Avropa Şurası bu istiqamətdə uzun müddətdir Azərbaycanın müxtəlif qurumları, o cümlədən Ədliyyə Nazirliyi ilə əməkdaşlıq edir. Azərbaycan məhkəmə sisteminin təkmilləşdirilməsi sahəsində böyük nailiyyətlər qazanıb. Çıxışçılar Azərbaycanda məhkəmə-hüquq sahəsində görülən işləri, ədliyyə sahəsindəki yenilikləri, müasir innovativ texnologiyaların tətbiqini təqdir ediblər.

Layihənin ərsəyə gəlməsində göstərdiyi səylərə görə Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğuna minnətdarlığını bildirən Ədliyyə nazirinin müavini Azər Cəfərov diqqətə çatdırıb ki, müstəqil məhkəmə sisteminin inkişafı Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu məhkəmə islahatları aparılır, bu sahədə qabaqcıl Avropa standartları tətbiq olunur. Ədliyyə Nazirliyinin Avropa Şurası ilə sıx tərəfdaşlıq şəraitində məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik aktları əsaslı şəkildə yenilənib, çoxsaylı institusional tədbirlər həyata keçirilib və bu qanunvericilik aktları hazırda uğurla tətbiq olunur.

Qeyd edilib ki, Azərbaycanda məhkəmə sisteminin müasir inkişaf tarixinin böyük hissəsi CEPEJ ilə əməkdaşlıq dövrünə təsadüf edir. Bu dövrdə qanunvericiliyə daha demokratik ruhlu, prosedurları daha şəffaf edən çoxsaylı düzəlişlər olunub. Ədalət mühakiməsinə əlçatanlığın yüksəldilməsi məqsədilə məhkəmələrin, hakimlərin, məhkəmə aparatı işçilərinin, vəkillərin sayı artırılıb, hakimlərin maddi və sosial müdafiəsi gücləndirilib, məhkəmələrin büdcəsi möhkəmləndirilib. Bu proses hazırda davam edir. Bu, dövlətimizin başçısının 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda müşahidə edilir. Azərbaycanda bu islahatlar bir çox hallarda Avropa Şurasının digər dövlətlərində məhkəmə sistemlərinin işi barədə CEPEJ tərəfindən həyata keçirilən kəmiyyət və keyfiyyət göstəricilərinin təhlilinə əsaslanıb.

Bildirilib ki, "Məhkəmə vaxtının səmərəli təşkili və düzgün bölüşdürülməsi, bəzi kateqoriyadan olan mübahisələrin məhkəmədənkənar alternativ həlli yollarının tətbiqi göstərilən bu məsələlərin sırasındadır. Avropa Şurası ilə birgə fəaliyyət planı çərçivəsində 2015-2017-ci illərdə həyata keçirilmiş ilk layihənin əsas komponentlərinin uğurlu icrası da məhz belə təhlillərin nəticələrinə söykənib. Yeni layihəyə məhkəmə sisteminin təkmilləşdirilməsi işinin dava-

mı kimi baxılmalıdır. Azərbaycan islahatları həyata keçirərkən Avropa dövlətlərinin təcrübəsinə istinad edir. Layihənin nəzərdə tutduğu məqsədlərin bir hissəsi dövlət başçısının müvafiq fərmanın çağırışları ilə üst-üstə düşür. Ümidvarıq ki, layihənin gözləntilərinə və uğurlarına nail olacağıq", - deyə Azər Cəfərov vurğulayıb.

Sonra CEPEJ-in prezidenti, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov və Şəki Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünü-idarəetməyə dəstək" layihəsinin əvvəlki mərhələsinin təqdimatı ilə bağlı çıxış ediblər, onun uğurlu nəticələri haqqında məlumat veriblər. CEPEJ alətlərinin tətbiqi sahəsində Azərbaycanda məhkəmələrin əldə etdiyi nailiyyətlərə toxunublar.

Avropa Şurasının proqram meneceri Mariana Fernandez Puçe və Avropa Şurasında layihə üzrə məsul şəxs Vəfa Rövşənova "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" adlı yeni layihəsinin təqdimatını edib, görüləcək işlər, milli məlumat bazasının yaradılması və digər məsələlər barədə danışıblar.

Daha sonra Azərbaycanda son ədliyyə islahatları çərçivəsində ədliyyə sahəsində müxtəlif qurumlarla CEPEJ arasında əməkdaşlıq mövzusunda təşkil edilən dəyirmi masada Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Cavid Hüseynov, Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov, Ali Məhkəmənin hakimi Sənan Hacıyev, Baş Prokurorluğun dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Mürvət Həsənov, Vəkillər Kollegiyasının Aparat rəhbəri Fərhad Nəcəfov çıxış ediblər.

Çıxışlarda məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsində dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli müvafiq Fərmanın müstəsna əhəmiyyətindən, qanunvericilik və institusional yeniliklərdən, alternativ mexanizmlərin təşviqindən, vəkilliyin fəaliyyətinin gücləndirilməsindən, Azərbaycanda məhkəmə sisteminin təkmilləşdirilməsindən, Avropa Şurasının ixtisaslaşmış qurumlarından olan CEPEJ-in ölkəmizdəki bu islahatların dərinləşməsinə dəstəyindən, təcrübəli ekspertlər ilə aparılan məsləhətləşmələrdən, onların tövsiyələrindən və digər məsələlərdən söz açılıb. Vurğulanıb ki, yeni layihənin icrası Azərbaycanda məhkəmə səmərəliliyinin ölçülməsi üzrə tətbiq edilən alətlərin bütün məhkəmələrə yayılmasına səbəb olacaq.

Tədbirdə mövzu ətrafında müzakirələr aparılıb.

# AŞPA-nın həmməruzəçisi Ədliyyə Nazirliyində olub

**Ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşüb.**

Görüşdə Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlıqdan məmnunluq ifadə olunub, dövlət başçısının 2017-ci il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının icrası üzrə görülən qanunvericilik və institusional tədbirlər müzakirə olunub.



Həmməruzəçilər cinayət qanunvericiliyinə edilmiş əsaslı dəyişikliklərə uyğun olaraq bir sıra əməllərin dekriminallaşdırılması ilə 5.000-ə yaxın məhkumun cəzadan tamamilə azad olunduğu və ya cəzasının yüngülləşdirildiyi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirildiyi, probasiya

xidmətinin yaradılaraq elektron nəzarət vasitələrinin tətbiqinə başlanıldığı və artıq 1500-dək məhkuma elektron qolbaq tətbiq olunduğu barədə ətraflı məlumatlandırılıb.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən bu sahədə tədbirlər davam etdirilərək cinayət qanunvericiliyinin yenidən humanistləşdirilməsinə dair təkliflərin hazırlandığı vurğulanıb.

Stefan Şennak humanistləşdirmə tədbirlərinin genişləndirilməsinin təqdirəlayiq hal olduğunu vurğulayıb, bu sahədə görülən işlər barədə Avropa Şurasının daha geniş məlumatlandırılmasının əhəmiyyətini qeyd edib. O, həmçinin məhkəmə-hüquq sistemindəki yeni islahatları, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin ölkə üzrə genişləndirilməsi, mübahisələrin məhkəmədən kənar həllində mühüm vasitə olan mediasiyanın təşviqi, sahibkarlıqla bağlı mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmənin yaradılması, hakimlərin sosial müdafiəsinin yaxşılaşdırılması, məhkəmələrin fəaliyyətinə kənar müdaxilənin qarşının alınması üzrə tədbirlərin gücləndirilməsi, məhkəmə qərarlarının icrasının və ekspertizanın alternativ mexanizmlərinin yaradılması üzrə və digər tədbirləri maraqla qarşılayıb.

Söhbət zamanı, maraq doğuran digər suallara aydınlıq gətirilib, faydalı fikir mübadiləsi aparılıb.

# Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyulun 4-də ədliyyə naziri Fikrət Məmmədov Sumqayıt şəhərində vətəndaşları qəbul edib.

Eyni zamanda, Ədliyyə nazirinin müavini Vilayət Zahirov iyulun 12-də İsmayıllıda, nazir müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov isə iyulun 19-da Şəkidə vətəndaşları qəbul ediblər.

Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Ədliyyə orqanları tərəfindən cari ilin birinci yarımilində görülmüş işlər müzakirə olunub

## ◆Probasiya xidmətində

İyulun 17-də Ədliyyə Nazirliyində Probasiya Xidməti tərəfindən cari ilin birinci yarımilində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası üzrə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.

Tədbiri giriş sözü ilə açan Ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması, cəza siyasətinin

humanistləşdirilməsi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq həyata keçirilən tədbirlər barədə məlumat verib, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanına əsasən humanistləşdirmə tədbirlərinin davam etdirildiyini, o cümlədən cinayətlərin dekriminallaşdırılması ilə bağlı qanunvericiliyə dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib.

Bildirib ki, bununla bağlı Fərmanda verilmiş tapşırıqların icrası ilə əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilib, bir çox əməllərin dekriminallaşdırılması, o cümlədən alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı qanun layihələri hazırlanıb və dövlət başçısına təqdim olunub.

Müşavirədə Probasiya Xidmətinin rəisi - baş probasiya məmuru Akşin Ziyadov hesabat məruzəsi ilə çıxış edib.

Diqqətə çatdırılıb ki, yerli probasiya qurumlarının qeydiyyatında olan məhkumlardan 4.700-dən çox şəxs cari ildə cəza müddətinin başa çatması və qanunla müəyyən edilmiş digər əsaslarla qeydiyyatdan çıxarılıb, cəzanın icrasından boyun qaçıran 384 məhkumun cəzası məhkəmələr tərəfindən digər cəza növü, o cümlədən 48 nəfərin cəzası azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib.

Həmçinin, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət



vasitələrinin tətbiqi genişlənərək bu ilin birinci yarımilində həmin cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 1.100-ə yaxın şəxsə elektron qolbaq tətbiq edilib, cəza müddəti bitən və digər qanuni əsaslara görə 300-dək məhkumdan isə qolbaqlar çıxarılıb. Hazırda 1400-dən artıq məhkum elektron qolbaq daşıyır.

Ölkə başçısının tapşırığına uyğun olaraq ictimai işlər növündə cəzanın icrasına effektiv nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər davam etdirilib, bu sahədə işin daha səmərəli təşkili məqsədilə yeni qanun layihələri hazırlanıb, ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası işində innovativ texnologiyaların tətbiqi imkanları öyrənilib, bu məqsədlə ictimai işlərin yerinə yetirilməsi vəziyyətinin izlənilməsinə və cəza çəkməkdən yayınma hallarının dərhal aşkar olunmasına xidmət edən xüsusi monitorinq qurğusu hazırlanıb.

Bildirilib ki, birinci yarımildə məhkəmənin qərarlarına əsasən 966 şəxs ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına cəlb edilib, onlardan 431-i ictimai işlərin müddətinin başa çatması ilə əlaqədar qeydiyyatdan çıxarılıb. Cərimə və islah işləri cəzalarının icrası ilə bağlı dövlət büdcəsinə ödənilən vəsaitin məbləği 12 faiz artaraq 1,2 milyon manatdan çox olub.

İclasda görülmüş işlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd edilib, mövcud problemlərlə bağlı Probasiya Xidmətinin məsul işçiləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini azadlıqdan məhrumetməyə alternativ cəzaların vaxtında və dürüst icrasının təmin olunması, tabe qurumların fəaliyyətinə nəzarətin gücləndirilməsi, probasiya üzrə icra məmurlarının peşəkarlığının artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi ilə bağlı konkret tapşırıqlar verib, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini vurğulayıb.

## ◆Penitensiar xidmətdə





**İyulun 17-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Baş idarəsində 2019-cu ilin birinci yarımilliyinin yekunlarına həsr olunan əməliyyat müşavirəsi keçirilib.**

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun sədrlik etdiyi müşavirədə Xidmətin Baş idarəsinin, eləcə də tabe qurumların rəhbər heyəti və Ədliyyə Nazirliyinin məsul əməkdaşları iştirak ediblər.

Nazir müavini tədbiri açaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə qaldırılan məsələlərlə bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin icrası istiqamətində bir sıra kompleks tədbirlərin həyata keçirildiyini qeyd edib. Ölkə başçısı tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərma və "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" ilə hüquqi islahatların növbəti mərhələsinə start verildiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, hüquq-mühafizə orqanlarının, o cümlədən Penitensiar xidmətin əməkdaşlarının sosial müdafiəsi də ölkə başçısının diqqətindən kənarda qalmayıb, müvafiq sərəncamlarla vəzifə maaşları artırılıb, digər sosial yönümlü tədbirlər həyata keçirilib.

Eyni zamanda dövlət başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamın icrası davam etdirilib, penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi istiqamətində müvafiq işlər görülüb.

Bildirilib ki, hesabat dövründə cəza-icra fəaliyyətini tənzimləyən qanunvericilikdə nəzərdə tutulmuş müxtəlif sahələr üzrə uzunmüddətli dövlət proqramlarında, Ədliyyə Nazirliyinin Kollegiya qərarlarında öz əksini tapmış tapşırıqların yerinə yetirilməsi nəzarətdə saxlanıb, Baş idarənin, tabe qurumların maddi-texniki bazasının inkişafına, fəaliyyətin səmərəliliyinin artırılmasına, nizam-intizamın möhkəmləndirilməsinə, nöqsanların aradan qaldırılmasına xüsusi diqqət yetirilib. Məhkumların ictimai faydalı əməyə cəlb olunması, cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi istiqamətində görülmüş işlər barəsində ətraflı danışaraq 2019-cu ilin birinci yarımili ərzində yaradılmış istehsalat sahələrində çox sayda yeni iş yerlərinin açıldığını xüsusilə nəzərə çatdırıb.

Penitensiar xidmətin rəis müavini Oqtay Məmmədov Xidmətin 2019-cu ilin ilk altı ayı ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi ilə çıxış edib. Diqqətə çatdırılıb ki, ölkə başçısının humanist siyasətinin növbəti təzahürü olan 16 mart tarixli Əfv Sərəncamı məhkumlar və onların ailələri tərəfindən sevinc və minnətdarlıq hissi ilə qarşılanıb, 402 məhkum,o cümlədən azadlıqdan məhrum etmə cəzasını çəkən 399 məhkum cəzanın

qalan hissəsini çəkməkdən azad edilib, 3 məhkumun isə ömürlük azadlıqdan məhrum etmə cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunub.

Hesabat dövründə Cinayət Məcəlləsində dəyişikliklərə dair Qanunun icrası davam etdirilib, penitensiar müəssisələrdə cəza çəkən 6549 məhkum barədə müvafiq sənədlər məhkəmələrə təqdim edilib. Məhkəmə qərarları əsasında 655 məhkum cəza çəkməkdən azad olunub, 2512 məhkumun cəza müddəti azaldılıb, 437 məhkumun cəzaçəkmə rejimi dəyişdirilib.

2019-cu ilin birinci yarım ili ərzində həbs edilmiş şəxslərə və məhkumlara qadağan olunmuş, habelə saxlanmasına icazə verilməyən əşyaların daxil olmasının qarşısının alınması, onların müəyyən edilərək götürülməsi prosesi davam etdirilib. Axtarış-baxış tədbirlərinin keyfiyyətli keçirilməsi, əməliyyat-rejim tədbirlərinin daha səmərəli təşkili nəticəsində həbs edilmiş şəxslərdən, məhkumlardan və digər şəxslərdən 29 litr qıcqırdılmış maye, 40 fakt üzrə 58,581 qram narkotik və psixotrop maddə, 47 mobil telefon aşkarlanaraq götürülüb.

Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində 385 müxtəlif cinayətin üstünün açılmasına köməklik göstərilib. Penitensiar Xidmətin əməliyyat aparatının təşəbbüslü məlumatları əsasında daxili işlər orqanları ilə birgə keçirilən əməliyyat tədbirləri nəticəsində həbs edilmiş şəxslər və məhkumlar tərəfindən könüllü olaraq təqdim edilmiş odlu və soyuq silah, habelə sursat götürülərək aidiyyəti orqanlara təhvil verilib.

Baş idarədə və tabe qurumlarda təmir-abadlıq işləri davam etdirilib. Bir sıra müəssisələrdə təbii qazla təchizat problemi tamamilə həll edilib, işıq, qaz və su sərfiyyatında israfçılığa yol verilməyib.

Tərbiyə işinə, xüsusilə məhkumların asudə vaxtlarının səmərəli təşkilinə, onlarla sosial yönümlü işə aidiyyəti dövlət strukturlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının cəlb olunmasına xüsusi diqqət yetirilib.

Müşavirədə Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrinin rəhbərlərinin çıxışları dinlənilib.

## ◆İcra baş idarəsində

**İyulun 19-da Ədliyyə Nazirliyində məhkəmə və digər orqanların qərarlarının icrası, o cümlədən məhkəmənin müəyyən edilmiş fəaliyyət qaydasının təmin edilməsi sahəsində 2019-cu ilin birinci yarımilində görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.**

Tədbiri giriş sözü ilə açan Ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq həyata keçirilən tədbirlər barədə məlumat verib, dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03 aprel 2019-cu il tarixli Fərmanına əsasən icra xidmətinin fəaliyyətinə dair görülən işləri qeyd edib.

Bildirib ki, Fərmanda verilmiş tapşırıqların icrası ilə əlaqədar "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınması üzrə konkret tədbirlər görülüb, qanunvericilik təkmilləşdirilib, həmçinin İcra Məcəlləsinin layihəsi hazırlanıb, icranın alternativ mexanizmləri, o cümlədən icranın özəl qurumlara həvalə edilməsi ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilərək müvafiq təkliflər verilib.

Sonra İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayev hesabat məruzəsi ilə çıxış edib.

Diqqətə çatdırıb ki, son illər məhkəmə qərarlarının icrası sahəsində iş həcmi əhəmiyyətli dərəcədə artıb. 2019-cu ilin birinci yarımilində icra qurumlarına daxil olan icra işlərinin sayı 731 minə çatıb, onlardan 384 mindən çoxunun icrası təmin edilib, qalan işlərin icrası üzrə tədbirlər davam etdirilir. Görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə əvvəlki dövrlə müqayisədə 50 faizdən artıq - 300 milyon manatdan çox vəsait ödətdirilib.

İcra məmurlarının qanuni tələblərini yerinə yetirməyən 1.954 şəxs inzibati məsuliyyətə cəlb olunub, o cümlədən 1.421 şəxs məhkəmələr tərəfindən inzibati qaydada həbs olunub, məhkəmə qərarlarının icrasından qəsdən yayınan 301 şəxs barəsində cinayət işi başlanılıb. Hesabat dövründə 2.496 borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, məhkəmə qərarını icra etmiş 8.210 şəxsin üzərindən əvvəllər qoyulmuş məhdudiyyət götürülüb ki, bu da ötən dövrlərlə müqayisədə 4 dəfə çoxdur.

Qeyd olunmalıdır ki, belə məhdudlaşdırmanın olub-olmamasını öyrənmək məqsədilə nazirlik tərəfindən vətəndaşlara göstərilən elektron xidmətdən istifadənin sayı 2019-ci ilin birinci yarımilində də artaraq 1 milyona yaxın olub.

İclasda görülmüş işlərlə yanaşı, nöqsan və çatışmazlıqlar qeyd edilib, mövcud





problemlərlə bağlı İcra xidmətinin məsul işçiləri dinlənilib, nöqsanların səbəb və şəraitinin aradan qaldırılması yolları ətraflı təhlil edilib.

Müşavirəyə yekun vuran nazir müavini vətəndaşların hüquqlarının təminatında mühüm rol oynayan məhkəmə qərarlarının vaxtında və dürüst icrasının təmin olunması, xüsusilə sahibkarlıq fəaliyyəti və alimentlə bağlı icra işlərinə nəzarətin gücləndirilməsi, məhkəmələrin müəyyən edilmiş fəaliyyət qaydasının səmərəli təminatına diqqətin artırılması, "Elektron icra" informasiya sisteminin və "Elektron sənəd dövriyyəsi"nin tətbiqinin genişləndirilməsi ilə bağlı konkret göstərişlər verib.

Həmçinin, icra xidmətinin yerli qurumlarının fəaliyyətinə nəzarətin artırılması, icra məmurlarının peşəkarlığının yüksəldilməsi, vətəndaşlara layiqli xidmət göstərilməsi və onların müraciətlərinə həssaslıqla yanaşılması tapşırılıb, etik davranış qaydalarına dönmədən əməl olunmasının, korrupsiyaya şərait yaradan halların yolverilməzliyinin icra məmurlarının ən ümdə vəzifəsi olduğu vurğulanıb.

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində

**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2019-cu ilin birinci yarımili ərzində icra və probasiya şöbə və bölmələrində görülmüş işlər və qarşıda duran vəzifələrə dair xidməti müşavirə keçirilib. Müşavirədə mövcud sahədə olan icra işlərinin ümumi sayı, kateqoriyalar üzrə statistikası, icra işlərinin həyata keçirilməsi zamanı yaranan çətinliklər və qarşıda duran vəzifələr müzakirə olunub.**

Tədbiri giriş sözü ilə Muxtar Respublikanın Ədliyyə naziri Suliddin Əliyev açaraq bildirib ki, 2019-cu ilin birinci yarımili ərzində daxil olmuş işlərin sayı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 175 iş çoxdur. Hazırda icraatımızda 8814 icra işi vardır ki, bunların da 7744-ü ötən illərdən icrası davam edən işlərdir. İcra işlərinin aparılması ilə bağlı 31 icra məmurumuz fəaliyyət göstərir. Muxtar respublika üzrə ümumi daxil olan işlərin icra oluma faizi 70.2% təşkil edir. 2019-cu ilin birinci yarımili ərzində icradan yayınan 113 nəfər borclunun ölkədən getmək hüququ məhdudlaşdırılıb, məhdudiyyətin qoyulmasına səbəb olmuş hallar aradan qalxdığına görə 136 nəfər borclunun üzərindən məhdudiyyət götürülüb, aliment tələbi ilə bağlı işlər üzrə 12 nəfər, pul tələbi ilə bağlı işlər üzrə 1 nəfər olmaqla ümumilikdə 13 nəfər borclu inzibati qaydada həbs edilib. İcradan yayınan borclular barəsində axtarış qərarı qəbul edilərək ərazi polis orqanlarına

göndərilib. İcra məmurları 21 cinayət, 840 mülki və 25 inzibati iş olmaqla, ümumilikdə 886 məhkəmə iclasında iştirak ediblər. 2 nəfər məhkuma elektron nəzarət vasitələri tətbiq edilib və probasiya nəzarəti həyata keçirilir.

Bu sahədə vətəndaşlardan daxil olan müraciətlər vaxtında araşdırılaraq operativ şəkildə cavablandırılıb, müvafiq köməklik göstərilərək, hüquqları izah olunub. Nazirliyin əməkdaşlarından ibarət qrup muxtar respublika üzrə işlərə cəlb edilib, 60-dan artıq icrası çətinlik törədən işin icrasına köməklik göstərilib. Hüquqi maarifləndirmə tədbirlərinin icrasıyla əlaqədar muxtar respublikanın rayon (şəhər) qəzetlərində 17 məlumatlandırıcı yazılar dərc edilib.

Qeyd olunub ki, görülən işlərlə yanaşı nöqsanlı hallara da rast gəlinir. Bəzi əməkdaşların işlərə səthi yanaşması, icraatda olan işləri təhlil etməməsi, bəzi hallarda vətəndaşlarla kobud rəftar etməsi buna misal ola bilər. Nazir bildirib ki, nöqsanların aradan qaldırılması üçün hər bir əməkdaş daha məsuliyyətli, nizam-intizamlı olmalı, vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarının tələblərinə düzgün əməl etməli, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməlidir. İcraatda olan işlərin icra olunma faizi yüksəldilməli, aliment və pul tələblərində ödəmələrin vaxtında aparılması təmin edilməlidir. İcradan yayınan borclular barəsində müvafiq tədbirlər görülməsi işi sürətləndirilməlidir. Bütün icra və probasiya qurumları işlərində dönüş yaratmalıdırlar. Əsas vəzifələrdən olan hüquqi maarifləndirmə işləri davam etdirilməli, muxtar respublikanın yerli informasiya vasitələrinin imkanlarından səmərəli istifadə edilməlidir.

Mövzu ətrafında nazir müavini, icra və probasiya şöbəsinin rəisi və yerli icra və probasiya qurumlarının rəisləri çıxış edərək görülən işlər barədə məruzə ediblər.

Müşavirədə nazir qeyd edib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən nazirliyə məhkəmə qərarlarının vaxtında icra olunmasını diqqətdə saxlamaq tapşırığı verilib. Sessiyada qarşıya qoyulan vəzifələr ikinci yarımil ərzində əsas vəzifələrimizdən olmaqla icrası təmin olunacaqdır. Bununla əlaqədar olaraq icraatda olan işlərin, xüsusilə də aliment və pul tələblərində ödənişlərin vaxtında yerinə yetirilməsinə diqqət artırılmalıdır.

Nazir sonda ikinci yarımildə qarşıda duran vəzifələrin icrasının həyata keçirilməsi istiqamətində tapşırıqlarını verib.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti müsabiqəyə yekun vurulub

**Ədliyyə orqanlarına qulluğa qəbul üzrə Müsabiqə Komissiyası bildirir ki, növbəti on altıncı müsabiqə üzrə test imtahanından uğur qazanmış və qanunvericiliyin tələblərinə cavab verən 126 namizədlə ikinci mərhələdə aşkarlıq şəraitində fərdi qaydada söhbət aparılıb.**

Qeyri-hökumət təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi bu mərhələdə 66 nəfər zəruri keçid balı toplayaraq müsabiqədən keçmiş hesab edilib.

Müsabiqə Komissiyası tərəfindən həmin namizədlərin Ədliyyə Akademiyasında xüsusi proqram əsasında icbari təlimə cəlb olunmaları barədə qərar qəbul edilib. Təlimin yekunları üzrə imtahandan müvəffəqiyyətlə keçən hüquqşünaslara peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə verilməklə onların ədliyyə orqanlarına qulluğa qəbul məsələsi həll olunacaqdır.

İcbari təlimdə iştirakla bağlı namizədlər avqust ayının 5-i saat 10.00-da Akademiyada olmalıdırlar (Bakı şəhəri, Vidadi küçəsi 158, telefon: 493-71-31).

Aidiyyəti məsələlərlə əlaqədar Nazirliyə müraciət edilə bilər (Bakı şəhəri, İnşaatçılar prospekti 1, telefon: 538-01-62, 538-08-85, elektron poçt: contact@justice.gov.az).

# Hakimlərin Seçki Komitəsinin məlumatı

**İyulun 23-də Hakimlərin Seçki Komitəsinin iclası keçirilib. İclasda qeyd edilib ki, ölkəmizdə həyata keçirilən məhkəmə islahatları çərçivəsində məhkəmə sisteminin yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hakimlər hesabına komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür.**

Hakimliyə namizədlərin Avropada müəyyən edilmiş ən mütərəqqi və şəffaf qaydalarla seçimi nəticəsində 3400-dən çox namizəd sırasından 415 nəfər yüksək hazırlıqlı hüquqşünas seçilərək uzunmüddətli təlimlər, məhkəmələrdə, habelə xarici dövlətlərdə təcrübə keçdikdən sonra hakim vəzifələrinə təyin edilib. Ötən il bu qaydalarla seçilmiş 108 nəfər hakimliyə namizədin təyinatı nəticəsində isə məhkəmə sistemində mövcud vakansiyaların tam əksəriyyəti komplektləşib, hakim korpusunun 70%-ni mütərəqqi qaydalarla seçilmiş gənc nəsl hakimlər təşkil edib.

Hakimlərin hədsiz yüksək olan iş yükünün azaldılması, süründürməçilik hallarının qarşısının alınması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanı ilə hakim ştatlarının sayı 200 vahid artırılıb, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr yaradılıb.

Bununla əlaqədar hakimliyə namizədlərin seçimində çevikliyin artırılması, habelə namizədlər üçün daha şəffaf və əlverişli şəraitin yaradılması məqsədilə Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi Qaydalarına bu ərəfədə müvafiq dəyişikliklər edilib.

Hakimlərin Seçki Komitəsinin iclasında hakimlərin seçimi üzrə yeni müsabiqənin elan olunmasına dair təşkilati məsələlər müzakirə edilib.

İclasda çıxış edən Dövlət İmtahan Mərkəzinin məsul nümayəndəsi test imtahanının müasir üsullarla, hər bir namizəd üçün fərdi kompüterlər vasitəsilə keçirilməsinin, onun nəticələrinə dair məlumatın dərhal əldə edilməsinin mümkünlüyünü vurğulayıb. Artıq bir çox imtahanların bu qaydada keçirildiyini və 200-250 nəfərlik qruplarla belə imtahanların təşkili üçün hər cür şəraitin olduğunu bildirib.

Komitədə bu təcrübənin imtahanların mütəmadi və çevik keçirilməsində əhəmiyyəti qeyd edilib, hakimliyə namizədlərlə test imtahanının Dövlət İmtahan Mərkəzi tərəfindən bu üsulla keçirilməsi təqdirəlayiq bilinib və növbəti müsabiqənin elan olunması qərara alınıb.

Bununla əlaqədar Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədləri 25 iyul 2019-cu il tarixdən qəbul ediləcəkdir (Ünvan: Bakı şəhəri, Z.Xəlilov küçəsi, 540-cı məhəllə). Namizədlər üçün əlverişli şəraitin yaradılması məqsədilə sənədlər həmçinin, Komitənin elektron poçt ünvanı vasitəsilə (hsk@jlc.gov.az) elektron qaydada da təqdim oluna bilər.

Elektron ərizə forması, habelə, tələb olunan sənədlərin siyahısı, imtahanların keçirilməsi tarixi, yeri, qaydası və digər aidiyyəti məsələlər barədə məlumatlarlar www.jlc.gov.az saytında mütəmadi dərc ediləcəkdir.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-19-07

# Ədliyyə Akademiyasının məlumatları

## Məhkəmə-hüquq sistemindəki islahatlarla bağlı icimai müzakirələr



**İyulun 26-da Ədliyyə Akademiyası elm müəssisələrinin nümayəndələri ilə Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanından irəli gələn məsələlərlə bağlı ictimai müzakirə təşkil edib.**

Ədliyyə Akademiyasının rektor əvəzi Elçin Xələfov bildirib ki, Fərmanla bağlı ictimai müzakirələrə həsr olunmuş tədbirlər paytaxt Bakı ilə yanaşı, ölkənin müxtəlif regionlarında keçirilib. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmələrə müraciət imkanlarının və əlçatanlığın genişləndirilməsi məqsədilə mühüm qərarlar qəbul olunur, ardıcıl tədbirlər görülür. Prezident tərəfindən imzalanmış müvafiq Fərman ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması və məhkəmə-hüquq orqanlarının şəffaflaşdırılması ilə bağlıdır. Dövlət başçısı tərəfindən aparılan iqtisadi və hüquqi islahatlar ölkəmizin inkişafına xidmət edir. 2019-cu il 3 aprel tarixli Fərman dövlətimizin başçısının məhkəmə hakimiyyətinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürü olmaqla, həyata keçirilən məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir.

"Azərbaycan Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşməsi haqqında" Fərmanı ədliyyə islahatlarının "yol xəritəsi" kimi" mövzusunda məruzə ilə çıxış edən Ədliyyə Nazirliyinin Təşkilat-Nəzarət Baş İdarəsinin rəisi, hakimlərin seçki komitəsinin üzvü Elçin Qasımov bildirib ki, ədliyyə və məhkəmə sisteminin gələcək inkişafının strateji prioritetlərini müəyyən edən bu Fərman həm də müstəsna əhəmiyyətə malik "yol xəritəsi" olmaqla proqram xarakteri daşıyır. O deyib ki, Fərman iqtisadi artımda mühüm əhəmiyyət daşıyan sahibkarlığın inkişafı, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə fəaliyyətinə müdaxilələrin qarşısının alınması, icraatın səmərəliliyinin artırılması və süründürməçiliyin aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması kimi problemlərin həlli istiqamətində qarşıya mühüm vəzifələr qoyub.

Nazirliyin idarə rəisi vurğulayıb ki, Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə və Baş Prokurorluğun məsul vəzifəli şəxslərindən ibarət xüsusi işçi qrup yaradılaraq qarşıya qoyulmuş məsələlər üzrə təhlillər aparılıb, beynəlxalq təcrübə öyrənilib, kompleks qanunvericilik, institusional və praktiki tədbirlərə dair birgə təkliflər hazırlanıb, digər tədbirlər həyata keçirilib. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı Azərbaycan Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə qanunvericiliyə dekriminallaşdırma ilə bağlı edilmiş dəyişikliklər nəticəsində 5 minə yaxın məhkum cəzadan tamamilə azad olunub və ya cəzası yüngülləşdirilib, istintaq təcridxanalarına daxil olan həbs edilmiş şəxslərin sayı 25 faiz azalıb.

Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Aynur

Sabitova bildirib ki, Fərmanla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən, habelə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə birgə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, sahibkarlığın inkişafı və Fərmanın icrasından irəli gələn digər məsələlər üzrə vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş maarifləndirmə tədbirləri keçirilib. Ötən 3 ay ərzində Ədliyyə Nazirliyində, həmçinin Dünya Bankı, Amerika Ticarət Palatası (AmCham), Azərbaycan Sahibkarlar Konfederasiyası, Vəkillər Kollegiyası ilə birgə, habelə Gəncədə və Lənkəranda, o cümlədən Lənkəran Dövlət Universitetində məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinə dair 8 ictimai müzakirə, 3 dəyirmi masa, 2 ictimai təqdimat və 1 brifinq keçirilib. Tədbirlərdə nazirliyin rəhbərliyi və məsul işçiləri, Prezident Administrasiyasının, Məhkəmə-Hüquq Şurasının, Mətbuat Şurasının rəhbər şəxsləri, Milli Məclisin deputatları, hakimlər, dövlət ittihamçıları, vəkillər və digər hüquqşünaslar, ictimai xadimlər, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və vətəndaş cəmiyyətinin digər nümayəndələri, beynəlxalq təşkilatların və diplomatik korpusun təmsilçiləri, KİV rəhbərləri, alimlər, sahibkarlar, gənclər və tələbələr iştirak ediblər. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov AZƏRTAC-a müsahibəsində Fərmanın icrası üzrə ötən 3 ayda görülmüş işlər barədə ictimaiyyətə geniş məlumat verib.

Bakı Dövlət Universitetinin professoru Xəyyam İsmayılov və digər məruzəçilər Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarından danışıblar. Qeyd ediblər ki, Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə qəbul edilmiş qanunlar ölkəmizin məhkəmə sisteminin daha səmərəli fəaliyyətinin təmin edilməsində mühüm rol oynayacaq.

## ◆ Kibercinayətkarlıqla mübarizəyə dair video-konfrans





**Ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqları çərçivəsində hakimlərin və digər hüquqşünasların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilir, Ədliyyə Akademiyasında insan hüquqları, cinayətkarlıqla mübarizə və digər aktual mövzularda davamlı tədris tədbirləri, o cümlədən distant treninq formaları tətbiq olunmaqla video-konfrans vasitəsilə təlimlər təşkil olunur. Bu sahədə həmçinin bir çox dövlətlərlə faydalı əməkdaşlıq edilərək təcrübə mübadiləsi aparılır.**

"Ədliyyə Akademiyası ilə Ukrayna Hakimlərinin Milli Məktəbi arasında əməkdaşlıq haqqında" Memorandumun implementasiyası çərçivəsində Akademiyada "Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası" mövzusunda video-konfrans vasitəsilə təlim keçirilib.

Hakimlərin, prokurorların və Akademiyanın əməkdaşlarının iştirak etdiyi tədbirdə Ali Məhkəmənin hakimi, Məhkəmə-Hüquq Şurası Tədris Sektorunun rəhbəri İlqar Xələfov və Ukrayna Hakimləri Milli Məktəbinin prorektoru Anatoliy Kostenko açılış nitqi ilə çıxış edib, səmərəli əməkdaşlıqda keçirilən distant

təlimin yaxşı təcrübələrin öyrənilməsinin, video-konfranslar vasitəsilə daha çevik təlim metodunun tətbiqinin əhəmiyyətini qeyd edib, müasir dövrdə kibercinayətkarlıqla mübarizə üzrə ikitərəfli və regional əməkdaşlığa dair məsələlərin aktuallığını vurğulayıblar.

Video-konfransda Taras Şevçenko adına Kiyev Dövlət Universitetinin Hüquq fakültəsinin Ədalət mühakiməsi kafedrasının dosenti, Ukrayna Hakimləri Milli Məktəbinin elmi işçisi, hüquq elmləri namizədi Nataliya Ahtırskayanın "Kibercinayətkarlıq haqqında Budapeşt konvensiyasının Ukraynada implementasiyası (tətbiqi)" və Məktəbin şöbə müdiri, hüquq elmləri namizədi Aleksandr İşenkonun "Kibercinayətkarlıq haqqında Budapeşt konvensiyasının tətbiqi mexanizmləri: məhkəməyə qədər təhqiqat və məhkəmə təcrübəsi" mövzularında mühazirələri dinlənilib, maraqlı diskussiyalar keçirilərək fikir mübadiləsi aparılıb, dinləyiciləri maraqlandıran suallara aydınlıq gətirilib.

Tədbir iştirakçıları bu cür müasir və aktual mövzulara dair distant təlimlərin təşkilinin onların bilik və bacarıqlarının artırılmasında səmərəsini qeyd ediblər.

## ◆ GİZ ilə birgə hakimlər üçün təlim



**Ədliyyə Akademiyası tərəfindən beynəlxalq təşkilatlarla əməkdaşlıqda həyata keçirilən silsilə tədris tədbirləri çərçivəsində iyul ayının 8-9-da Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə hakimlər üçün "İnzibati prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması" mövzusunda növbəti iki günlük təlim keçirilib.**

GİZ-in "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" adlı regional proqramı çərçivəsində təşkil olunan təlimin açılışında Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov çıxış edərək Ədliyyə Akademiyası ilə səmərəli əməkdaşlıqdan, hakimlər üçün birgə tədris tədbirlərinin təşkilindən bəhs edib, təlimin əhəmiyyətini vurğulayıb.

Təlimdə Almaniyanın təqaüddə olan hakimi Peter Jacobun təqdimatları dinlənilib.

Təlimdə inzibati prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması ilə bağlı məsələlər hakimlərin diqqətinə çatdırılıb, müxtəlif kazuslar üzrə iş aparılıb, diskussiyalar aparılaraq maraq doğuran suallar ətraflı cavablandırılıb.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7 (I kitab), maddə 1442; 2019, N 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 19-cu maddənin birinci hissəsi üzrə:

1.1.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"inzibati məhkəmələr;";

1.1.2. yeddinci-doqquzuncu abzaslar müvafiq olaraq səkkizinci-onuncu abzaslar hesab olunsun və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"kommersiya məhkəmələri;";

1.2. VIII fəslin adında, 42-ci maddənin adında, birinci və ikinci hissələrində, 43-cü maddənin adında, birinci - üçüncü hissələrində, 44-cü maddənin adında, birinci hissəsinin birinci cümləsində və ikinci hissəsində, 45-ci maddənin adında və birinci hissəsinin birinci abzasında, 45-1-ci maddənin adında "İnzibati-iqtisadi" sözləri "İnzibati" sözü ilə əvəz edilsin;

1.3. 42-ci maddənin birinci hissəsindən "və iqtisadi" sözləri çıxarılsın;

1.4. 43-cü maddənin birinci hissəsindən "və ya azad iqtisadi zonalar" sözləri çıxarılsın;

1.5. 44-cü maddənin birinci hissəsinin ikinci cümləsində və 45-ci maddənin birinci hissəsinin beşinci abzasında "İnzibati-iqtisadi" sözləri "inzibati" sözü ilə əvəz edilsin;

1.6. 45-1-ci maddənin mətnində "İnzibati-iqtisadi məhkəmə" sözləri "İnzibati məhkəmə" sözləri ilə, "inzibati-iqtisadi məhkəmənin" sözləri isə "inzibati məhkəmənin" sözləri ilə əvəz edilsin;

1.7. Aşağıdakı məzmunda VIII-I fəsil əlavə edilsin:

**"VIII-I fəsil**
**KOMMERSİYA MƏHKƏMƏLƏRİ**

**Maddə 46-1. Kommersiya məhkəməsi və onun səlahiyyətləri**

Kommersiya məhkəməsi birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxır.

Kommersiya məhkəməsi məhkəmə statistikasını təhlil edir, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə

təcrübəsini öyrənir və ümumiləşdirir, Azərbaycan Respublikasının qanunları ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 46-2. Kommersiya məhkəməsinin təşkili**

Kommersiya məhkəməsi Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə təşkil edilir.

Kommersiya məhkəməsinin təşkili və olduğu yer Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunur.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir və onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.

**Maddə 46-3.Kommersiya məhkəməsinin tərkibi**

Kommersiya məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 12 və daha çox hakim olan kommersiya məhkəməsində sədr müavini vəzifəsi təsis edilir.

Kommersiya məhkəməsi hakimlərinin sayı Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyənləşdirilir.

**Maddə 46-4.Kommersiya məhkəməsi sədrinin səlahiyyətləri**

Kommersiya məhkəməsinin sədri:

məhkəmədə işin təşkilinə və məhkəmə aparatının işinə rəhbərlik edir, məhkəmədə əmək və icra intizamına əməl olunmasını təmin edir;

məhkəmə iclaslarına sədrlik edir, işlərin kargüzarlıq qaydalarına uyğun bölüşdürülməsinə nəzarət edir;

məhkəmə aparatının işçilərinin işə qəbul və işdən azad edilməsi, mükafatlandırılması və intizam qaydasında cəzalandırılması məsələlərini həll edir;

Ali Məhkəmənin Plenumunda və müvafiq apellyasiya instansiyası məhkəməsinin Rəyasət heyətində kommersiya məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir;

məhkəmə fəaliyyətinin təşkili vəziyyətinin, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə, məhkəmə statistikasının aparılmasına rəhbərlik edir;

şəxslərin qəbulu, təklif, ərizə və şikayətlərə baxılması sahəsində məhkəmənin işini təşkil edir;

Azərbaycan Respublikasının qanunları ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

**Maddə 46-5. Kommersiya məhkəməsi sədrinin müavininin səlahiyyətləri**

Kommersiya məhkəməsi sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, kommersiya məhkəməsinin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.";

1.8. 53-cü və 62-ci maddələrin birinci hissələrində "inzibati-iqtisadi kollegiyadan, cinayət kollegiyasından və hərbi kollegiyadan" sözləri "kommersiya kollegiyasından, inzibati kollegiyadan və cinayət kollegiyasından" sözləri ilə əvəz edilsin;

1.9. 61-ci və 77-ci maddələrin birinci hissələrində "inzibati və iqtisadi" sözləri "kommersiya və inzibati" sözləri ilə əvəz edilsin;

1.10. 78-ci maddənin üçüncü hissəsində "inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" sözləri "kommersiya kollegiyası, inzibati kollegiya və cinayət kollegiyası" sözləri ilə əvəz edilsin;

1.11. 83-cü maddədə beşinci-on doqquzuncu abzaslar müvafiq olaraq altıncı-iyirminci abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"aidiyyətə dair mübahisələrə baxılması üçün Ali Məhkəmənin müvafiq kollegiyalarının hakimlərindən ibarət qarışıq tərkibləri müəyyən edir;";

1.12. 106-cı maddənin birinci hissəsinin dördüncü abzasında "və inzibati-iqtisadi məhkəmələrin" sözləri ", inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1632-VQD*

## İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasında məhkəmə sistemini təkmilləşdirmək və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun 2020-ci il yanvarın 1-dən tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Aşağıdakı inzibati məhkəmələr təşkil edilsin:

1.1. Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi - Naxçıvan şəhərində;

1.2. Bakı İnzibati Məhkəməsi - Bakı şəhərində;

1.3. Gəncə İnzibati Məhkəməsi - Gəncə şəhərində;

1.4. Sumqayıt İnzibati Məhkəməsi - Sumqayıt şəhərində;

1.5. Şirvan İnzibati Məhkəməsi - Şirvan şəhərində;

1.6. Şəki İnzibati Məhkəməsi - Şəki şəhərində.

2. Aşağıdakı kommersiya məhkəmələri təşkil edilsin:

2.1. Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi - Naxçıvan şəhərində;

2.2. Bakı Kommersiya Məhkəməsi - Bakı şəhərində;

2.3. Gəncə Kommersiya Məhkəməsi - Gəncə şəhərində;

2.4. Sumqayıt Kommersiya Məhkəməsi - Sumqayıt şəhərində;

2.5. Şirvan Kommersiya Məhkəməsi - Şirvan şəhərində;

2.6. Şəki Kommersiya Məhkəməsi - Şəki şəhərində.

3. Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi, 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi, Gəncə İnzibati-İqtisadi Məhkəməsi, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi, Şirvan İnzibati-İqtisadi Məhkəməsi və Şəki İnzibati-İqtisadi Məhkəməsi ləğv edilsin.

4. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki:

4.1. bu Fərmanın 1.2 - 1.6-cı bəndlərində nəzərdə tutulmuş inzibati məhkəmələrin və bu Fərmanın 2.2 - 2.6-cı bəndlərində nəzərdə tutulmuş kommersiya məhkəmələrinin ərazi yurisdiksiyasını müəyyən etsin;

4.2. inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin hakimlərinin təyin edilməsi ilə bağlı təklifləri 2019-cu il dekabrın 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. bu Fərmanın 4.2-ci bəndində nəzərdə tutulmuş təklifləri hazırlayarkən namizədlərin müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığının olmasına xüsusi diqqət yetirsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. yeni təşkil edilən məhkəmələrin fəaliyyəti üçün zəruri şərait yaradılması məqsədilə onların binalar, avadanlıq, rabitə, nəqliyyat və digər təşkilati-texniki vasitələrlə təmin edilməsi ilə bağlı tədbirlər görsün;

5.2. yeni məhkəmələrin təşkili ilə bağlı xərclərin 2020-ci il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutulmasını təmin etsin;

5.3. yeni təşkil edilən məhkəmələr fəaliyyətə başlayanadək inzibati-iqtisadi məhkəmələrin fəaliyyətinin maliyyələşdirilməsini təmin etsin;

5.4. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və

hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.7. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Bu Sərəncamın 1 - 3-cü hissələri 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 iyul 2019-cu il*
*N 1325*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; 2017, N 2, maddə 155, N 4, maddə 523, N 5, maddələr 706, 750, N 11, maddələr 1935, 1975; 2018, N 5, maddə 879, N 8, maddə 1672, N 11, maddələr 2209, 2225, N 12 (I kitab), maddələr 2524, 2534; 2019, N 1, maddə 23; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1535-VQD nömrəli və 3 may tarixli 1575-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddə üzrə:

1.1.1. 1.1-ci və 1.6-cı maddələrdə "iqtisadi mübahisələr" sözləri "kommersiya mübahi-

sələri" sözləri ilə əvəz edilsin;

1.1.2. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"**Qeyd:** Bu Məcəllədə kommersiya mübahisələri dedikdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələr başa düşülür.".

1.2. 2.1, 4.3, 6, 7.2, 8.1-ci maddələrdə, 10-1-ci maddənin adında, 10-1.1, 11.1, 12.1, 17.1, 150.0.4, 152.1.4, 154.1, 284-1, 284-3.1, 404-1, 440.1 və 463-cü maddələrdə ismin müvafiq hallarında "iqtisadi mübahisələr" sözləri ismin müvafiq hallarında "kommersiya mübahisələri" sözləri ilə, 10-1.3, 135.8 və 272.4-1-ci maddələrdə "İqtisadi mübahisələr" sözləri "Kommersiya mübahisələri" sözləri ilə, 82.4-cü maddədə "iqtisadi mübahisəyə" sözləri "kommersiya mübahisəsinə" sözləri ilə əvəz edilsin.

1.3. 4.3-cü və 55.2-ci maddələrdə, 231.3-cü maddənin ikinci cümləsində (hər üç halda) ismin müvafiq hallarında "inzibati-iqtisadi məhkəmə" sözləri ismin müvafiq hallarında "kommersiya məhkəməsi" sözləri ilə, 34-cü və 358.0.2-ci maddələrdə ismin müvafiq halında "inzibati-iqtisadi məhkəmələr" sözləri ismin müvafiq halında "kommersiya məhkəmələri" sözləri ilə əvəz edilsin.

1.4. 24.2-ci maddədə "inzibati-iqtisadi məhkəməyə aidiyyəti işdə iştirak edən şəxslərin subyektiv tərkibi, yaxud mübahisənin predmeti və ya" sözləri "kommersiya məhkəməsinə aidiyyəti işdə iştirak edən şəxslərin subyektiv tərkibi, mübahisənin predmeti və" sözləri ilə əvəz edilsin.

1.5. 25-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"25.1. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan mübahisələrə dair işlərə mülki məhkəmə icraatı qaydasında ümumi məhkəmələr baxır.

25.2. Ümumi məhkəmələr bu Məcəllənin 26.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Məcəllənin 305-ci maddəsində göstərilən xüsusi icraat işlərinə və qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxırlar.".

1.6. 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 26. Mübahisələrin kommersiya məhkəmələrinə aidiyyəti**

26.1. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə (kommersiya mübahisələrinə) dair işlərə mülki məhkəmə icraatı qaydasında kommersiya məhkəmələri baxır.

26.2. Kommersiya məhkəmələri bu Məcəllənin 40-5-ci fəslində nəzərdə tutulmuş işlərə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduqda bu Məcəllənin 35-ci və 40-2-ci fəsillərində nəzərdə tutulmuş işlərə və qanunla onların səlahiyyətlərinə aid edilən digər işlərə də baxırlar.".

1.7. 30-cu maddədə "inzibati-iqtisadi məhkəməyə aiddirsə, tələblərə ümumi məhkəmədə" sözləri "kommersiya məhkəməsinə aiddirsə, tələblərə kommersiya məhkəməsində" sözləri ilə əvəz edilsin.

1.8. 32.7-ci maddənin üçüncü cümləsində "apellyasiya" sözü "kasasiya" sözü ilə əvəz edilsin.

1.9. 269.3-cü maddədə "məhkəməsinə" sözündən sonra ", bu Məcəllənin 32.5-ci maddəsində nəzərdə tutulmuş qaydada aidiyyət haqqında qərardaddan şikayət verildikdə isə kasasiya instansiyası məhkəməsinə" sözləri əlavə edilsin.

1.10. 358.0.2-ci maddədə ikinci və üçüncü hallarda "inzibati-iqtisadi" sözləri "kommersiya" sözü ilə əvəz edilsin.

1.11. 402-ci maddədə "inzibati-iqtisadi" sözləri (hər iki halda) "kommersiya" sözü ilə əvəz edilsin və həmin maddədən "işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi," sözləri çıxarılsın.

1.12. Aşağıdakı məzmunda 403-1-ci maddə əlavə edilsin:

**"Maddə 403-1. Kasasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması**

403-1.1. İşdə iştirak edən şəxslər işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadlardan şikayət vermək hüququna malikdirlər.

403-1.2. Kasasiya instansiyası məhkəməsi tərəfindən məhkəmə aidiyyətinə dair mübahisələrə bu maddədə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 43-cü fəslində müəyyən olunmuş qaydalara uyğun olaraq baxılır.

403-1.3. Məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayət bu Məcəllənin 407.1 - 407.3-cü maddələrində nəzərdə tutulmuş tələblərə uyğun olaraq verilir. Şikayətə vəkilin orderi də əlavə olunur.

403-1.4. Şikayətin qaytarılması məsələsi bu Məcəllənin 408-ci maddəsində nəzərdə tutulmuş qaydada birinci instansiya məhkəməsi və ya kasasiya instansiyası məhkə-

məsi tərəfindən həll edilir. Şikayətin birinci instansiya məhkəməsi tərəfindən qaytarılmasına dair qərardaddan kasasiya instansiyası məhkəməsinə şikayət verilə bilər.

403-1.5. İcraata qəbul edilmiş şikayətin surəti işdə iştirak edən şəxslərə rəsmi qaydada verildikdən sonra onlar, 5 gündən gec olmayaraq şikayətə dair etirazlarını və yaxud izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar.

403-1.6. Kasasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərin qarışıq tərkibində tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan 10 gün müddətində baxılır.

403-1.7. Kasasiya instansiyası məhkəməsi məhkəmə aidiyyəti məsələsini həll edərkən məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

403-1.8. Kasasiya instansiya məhkəməsi məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətə baxarkən:

403-1.8.1. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlaya bilər;

403-1.8.2. işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı tamamilə ləğv edib, yeni qərar qəbul edə bilər.

403-1.9. Bu Məcəllənin 403-1.8-ci maddəsinə uyğun olaraq çıxarılmış qərar işdə iştirak edən şəxslərə qəbul edildiyi gündən 3 gün müddətində sifarişli məktubla göndərilməli və yaxud qəbz alınmaqla təqdim edilməlidir.".

1.13. 404.1.2-ci maddədə "inzibati-iqtisadi" sözləri (birinci halda) "kommersiya" sözü ilə, "inzibati-iqtisadi" sözləri (ikinci halda) "Kommersiya" sözü ilə, "iqtisadi mübahisələrə dair işlər üzrə" sözləri "Kommersiya" sözü ilə əvəz edilsin.

1.14. 404.2-ci maddə ləğv edilsin.

1.15. 414-cü, 422-ci və 423-cü maddələrdə "İnzibati-iqtisadi" sözləri "Kommersiya" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1633-VQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N

8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421; 2018, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 73.2-ci maddədən "və ya hərbi kollegiyası" sözləri çıxarılsın;

1.2. 78.5-ci maddədən "və ya hərbi kollegiyasında" sözləri çıxarılsın;

1.3. 381.2.3-cü maddədə hər iki halda "hərbi kollegiyasına" sözləri "cinayət kollegiyasına" sözləri ilə əvəz edilsin;

1.4. 408.2.5-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin, 408.2.6-cı və 408.2.7-ci maddələr ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1634-VQD*

## Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12; 2017, N 4, maddə 522, N 5, maddə 752, N 11, maddə 1976; 2018, N 5, maddələr 855, 878, N 7 (I kitab), maddə 1440; 2019, N 1, maddə 23) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci maddədə "inzibati-iqtisadi məhkəmələr və inzibati-iqtisadi kollegiyalar" sözləri "inzibati məhkəmələr və inzibati kollegiyalar" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü maddənin adında, 3.5-ci maddədə, 5-ci maddənin adında və mətnində, 6-cı maddənin adında və mətnində, 8.6-cı maddənin birinci cümləsində, 81.1-ci maddənin birinci cümləsində, 86.3-cü maddədə "İnzibati-iqtisadi" sözləri "İnzibati" sözü ilə əvəz edilsin;

1.3. 3.1-ci maddədə, 3.2-ci maddənin birinci cümləsində, 3.3-cü, 3.6-cı maddələrdə, 8.6-cı maddənin birinci və ikinci cümlələrində, 81.1-ci maddənin ikinci cümləsində, 83.1-ci, 85.1-ci və 86.1-ci maddələrdə, 87.7-ci maddənin ikinci cümləsində, 87.7.1-ci və 87.7.2-ci

maddələrdə "inzibati-iqtisadi" sözləri "inzibati" sözü ilə əvəz edilsin;

1.4. 3.4, 90.1, 98.2, 98.4, 98.5-ci maddələrdə və 98.6-cı maddənin birinci cümləsində "inzibati-iqtisadi" sözləri "İnzibati" sözü ilə əvəz edilsin.

1.5. 3.8-ci maddədə "inzibati-iqtisadi məhkəmələrin və məhkəmə kollegiyalarının" sözləri "inzibati məhkəmələrin və inzibati kollegiyaların" sözləri ilə əvəz edilsin;

1.6. 4.3-cü maddədən "mübahisələrə dair işlər üzrə" sözləri çıxarılsın.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1635-VQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2 (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N 12 (I kitab), maddə 2515) aşağıdakı dəyişikliklər edilsin:

1. 40-cı maddə üzrə:

1.1. 40.2-ci maddədə "72" rəqəmi "72.1" rəqəmi ilə, "aşağıdakı hallarda təhqiqatçının və" sözləri "hallarda təhqiqatçının və ya" sözləri ilə, iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 40.2.1-40.2.3-cü maddələr ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 40.3-cü və 40.4-cü maddələr əlavə edilsin:

"40.3. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72.2-ci, 73.2-ci, 73.3-cü, 73-1.1-ci və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.

40.4. Şəxsin iqtisadi fəaliy-

yət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.".

2. Aşağıdakı məzmunda 41.1-1-ci maddə əlavə edilsin:

"41.1-1. Cinayət təqibi üzrə icraata bəraətverici əsaslar olmadan xitam verilməli olduğu, lakin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına əsasən xüsusi müsadirənin tətbiq edilməsi üçün əsaslar müəyyən edildiyi hallarda, cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və məhkəmənin yekun qərarının çıxarılması ilə başa çatdırılır.".

3. 43.1.2-ci maddədə "39.1.6-39.1.11-ci" sözləri "39.1.6-39.1.11, 40.3 və 40.4-cü" sözləri ilə əvəz edilsin.

4. 84.5.3-cü maddədə "orqandan" sözü "müvafiq icra hakimiyyəti orqanından" sözləri ilə əvəz edilsin və həmin maddədə "icraatına vermək" sözlərindən sonra ", habelə istintaqı aid olan orqanın bir istintaq qurumundan digərinə vermək" sözləri əlavə edilsin.

5. 85.2.11-ci maddədə "əmlak müsadirəsinin" sözləri "xüsusi müsadirənin" sözləri ilə əvəz edilsin.

6. 86.2.7-ci maddədə "əmlak müsadirəsinin" sözləri "xüsusi müsadirənin" sözləri ilə əvəz edilsin.

7. 132-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"132.1. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar məhkəmə yekun qərar çıxararkən aşağıdakı qaydalara riayət etməlidir:

132.1.1. şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla) xüsusi müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;

132.1.2. şəxsin cinayət yolu ilə əldə etdiyi pul vəsaitləri və ya digər əmlak, habelə həmin pul vəsaitləri və ya digər əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan pul vəsaitləri və ya digər əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla), həmçinin şəxsin cinayət yolu ilə əldə etdiyi pul vəsaitləri və ya digər əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi xüsusi müsadirə olunmalı və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilməli, qalan hissəsi dövlətin nəfinə keçirilməlidir (zərər çəkmiş şəxs məlum olmadıqda isə tam həcmdə dövlətin nəfinə keçirilməlidir);

132.1.3. terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak xüsusi müsadirə olunmalı və dövlət nəfinə keçirilməlidir;

132.1.4. mülki dövriyyəsi məhdudlaşdırılmış (qanuni əsaslarla əldə etmə halları istisna olmaqla) və mülki dövriyyədən çıxarılmış əşyalar müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;

132.1.5. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi nəticəsində qanuni sahiblikdən çıxarılmış pul və qiymətli əşyalar sahiblərinə, mülkiyyətçilərinə və ya hüquqi varislərinə qaytarılmalıdır;

132.1.6. maddi sübut olan sənədlər cinayət təqibi üzrə icraat materiallarının saxlanma müddəti ərzində işdə saxlanılmalı və ya maraqlı təşkilatların və şəxslərin vəsatəti olduqda bu Məcəllənin 136.3-cü maddəsində nəzərdə tutulmuş qaydada onlara verilməlidir;

132.1.7. dəyəri olmayan digər əşyalar məhv edilməlidir.

132.2. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar cinayət prosesini həyata keçirən orqan cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərar çıxararkən bu Məcəllənin 132.1.4-132.1.7-ci maddələrində müəyyən edilmiş qaydalara riayət etməlidir.".

8. 217.3-cü maddədə "onun" sözündən sonra ", habelə işin icraata qəbul edilməsi haqqında qərarın" sözləri əlavə edilsin.

9. 248.1.1-ci maddədə "əmlak müsadirəsini" sözləri "xüsusi müsadirəni" sözləri ilə əvəz edilsin.

10. 254.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"254.1. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı mülki iddiadan imtina edildikdə və ya cinayət təqibi üzrə icraata xitam verildikdə əmlak üzərinə məhkəmə tərəfindən qoyulmuş həbs müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılmış qərarına əsasən ləğv edilir. Məhkəmə icraatı zamanı və bu maddədə göstərilməyən digər hallarda əmlak üzərinə qoyulmuş

həbs yalnız məhkəmənin qərarı əsasında ləğv edilə bilər.".

11. 289.8.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"289.8.3. xüsusi müsadirə olunması təklif edilən əmlak barədə;".

12. 289.8.4-cü, 290.2.8-ci və 346.1.18-ci maddələrdə "əmlak müsadirəsinin" sözləri "xüsusi müsadirənin" sözləri ilə əvəz edilsin.

13. 346.1.19-cu maddədə "müsadirə edilməli olduğu, cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində təqsirləndirilən şəxsə məxsus olan hansı məbləğdə pulun və ya hansı əmlakın müsadirə edilməli olduğu" sözləri "xüsusi müsadirə edilməli olduğu" sözləri ilə əvəz edilsin.

14. 353-cü maddə üzrə:

14.1. 353.4.11-ci maddədə "əmlak müsadirəsi cəzası təyin olunduğu halda müsadirə edilməli olan cinayətin predmetləri, cinayət törədərkən istifadə olunan alət və vasitələr, cinayət yolu ilə əldə edilmiş əmlakın siyahısı, habelə cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində müsadirə olunacaq məhkuma məxsus olan pulun miqdarı və ya" sözləri "xüsusi müsadirə edilən" sözləri ilə əvəz edilsin;

14.2. 353.5.3-cü maddədə "əmlak müsadirəsinin" sözləri "xüsusi müsadirənin" sözləri ilə əvəz edilsin.

15. 506-cı maddə üzrə:

15.1. maddənin adına "cəzalarını" sözündən sonra "və cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri əlavə edilsin;

15.2. 506.0.4-cü maddədə "ərizəsinə və ya cəzanı" sözləri ", barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxsin nümayəndəsinin ərizəsinə və ya cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri ilə əvəz edilsin.

16. 510-cu maddə üzrə:

16.1. maddənin adına "Hökmün" sözündən sonra "və ya məhkəmənin digər yekun qərarının" sözləri əlavə edilsin;

16.2. 510.3-cü maddəyə "Məhkum" sözündən sonra "və ya hüquqi şəxs" sözləri əlavə edilsin;

16.3. 510.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 510.3-cü maddəsində nəzərdə tutulmuş halda hüquqi şəxs barəsində cərimə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi haqqında məhkəmənin yekun qərarının icrasının təxirə salınması məsələsinə hüquqi şəxsin nümayəndəsinin ərizəsi əsasında məhkəmə tərəfindən baxılır.".

17. 518.0-cı maddədə "ərizəsinə, cəzanı" sözləri "və ya barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsinin ərizəsi, cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il.*
*N 1638-VQD*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (II kitab), maddə 251, N 5, maddə 323, N 12, maddə 835; 2001, N 1, maddə 24, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddələr 236, 248, 258, N 6, maddə 326, N 8, maddə 465; 2003, N 6, maddələr 276, 279, N 8, maddələr 424, 425, N

12 (I kitab), maddə 676; 2004, N 1, maddə 10, N 4, maddə 200, N 5, maddə 321, N 8, maddə 598, N 10, maddə 762, N 11, maddə 900; 2005, N 1, maddə 3, N 6, maddə 462, N 7, maddə 575, N 10, maddə 904, N 11, maddə 994; 2006, N 2, maddələr 71, 72, 75, N 5, maddə 390, N 12, maddələr 1008, 1020, 1028; 2007, N 2, maddə 68, N 5, maddə 398, N 6, maddələr 560, 562, 579, N 8, maddə 757, N 10, maddələr 937, 941, N 11, maddələr 1049, 1080, 1090, N 12, maddə 1221; 2008, N 6, maddələr 454, 461, N 7, maddə 602, N 10, maddə 884, N 12, maddələr 1047, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 953; 2010, N 2, maddə 70, N 3, maddələr 171, 178, N 4, maddələr 275, 276, N 7, maddə 591; 2011, N 4, maddə 253, N 5, maddə 472, N 7, maddələr 587, 601, 621, N 11, maddə 980, N 12, maddə 1093; 2012, N 2, maddə 45, N 3, maddələr 193, 196, N 7, maddələr 666, 669, 673, N 11, maddə 1068, N 12, maddə 1223; 2013, N 1, maddə 14, N 2, maddə 102, N 4 maddə 364, N 5, maddələr 459, 479, 481, N 6, maddələr 594, 600, N 11, maddələr 1264, 1286, 1312, N 12, maddə 1492; 2014, N 2, maddələr 89, 95, N 4, maddə 327, N 6, maddələr 618, 622; 2015, N 4, maddələr 339, 359, 368, N 5, maddələr 504, 508, 510, N 6, maddələr 678, 690, 692, N 11, maddələr 1253, 1268, 1289, 1298, N 12, maddələr 1437, 1445; 2016, N 4, maddələr 634, 636, 638, 653, N 5, maddə 845, N 6, maddələr 993, 1001, N 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, N 2, maddə 161, N 3, maddə 330, N 5, maddələr 694, 696, 702, 733, N 7, maddələr 1268, 1271, 1293, N 11, maddələr 1968, 1978, N 12 (I kitab), maddə 2231; 2018, N 3, maddə 403, N 5, maddə 861, N 6, maddə 1154, N 7 (I kitab), maddə 1441, N 10, maddə 1972, N 11, maddə 2213, N 12 (I kitab), maddə 2472; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 72.2-ci maddədə "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 73.3-cü maddə əlavə edilsin:

"73.3. Başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 73.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilir.".

3. 99-1-ci maddə üzrə:

3.1. 99-1.1-ci maddəyə "aşağıda göstərilən əmlakın" sözlərindən sonra "məhkəmənin yekun qərarı ilə" sözləri əlavə edilsin;

3.2. 99-1.1.1 və 99-1.1.2-ci maddələrdə "məhkumun" sözü "şəxsin" sözü ilə əvəz edilsin;

3.3. 99-1.3-cü maddənin birinci cümləsində "Məhkum" sözü "Cinayət törətmiş şəxs" sözləri ilə, ikinci cümləsində "məhkum" sözü "cinayət törətmiş şəxs" sözləri ilə əvəz edilsin.

4. 99-2-ci maddə üzrə:

4.1. adında "Əmlakın dəyərinə görə" sözlərindən sonra "xüsusi" sözü əlavə edilsin;

4.2. mətnində "məhkuma məxsus olan digər əmlak" sözləri "cinayət törətmiş şəxsə məxsus olan digər əmlak məhkəmənin yekun qərarı ilə xüsusi" sözləri ilə əvəz edilsin.

5. 99-3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"99-3.2. Cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyan müsadirə edilmiş əmlak hesabına ödənilməli, bundan sonra əmlakın qalan hissəsi dövlət nəfinə alınmalıdır. Müsadirə edilmiş əmlak cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə kifayət etmədiyi və cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı olduğu hallarda ziyanın qalan hissəsi cinayət törətmiş şəxsin həmin əmlakının hesabına ödənilir.".

6. 99-4.6-cı maddəyə "271-284," rəqəmlərindən sonra "303.2," rəqəmləri əlavə edilsin.

7. 99-5.3-cü (ikinci halda), 99-5.3.1 - 99-5.3.6-cı maddələr müvafiq olaraq 99-5.4-cü, 99-5.4.1 - 99-5.4.6-cı maddələr hesab edilsin.

8. 209.3-cü maddədə "209.1-ci maddəsində" sözləri "209.1 və 209.2.1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

9. 213.3-cü maddədə "213.1-ci maddəsində" sözləri "213.1 və 213.2.1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

10. 234.4-cü maddədə "və 234.3-cü" sözləri ", 234.3 və 234.3-1-ci" sözləri ilə əvəz edilsin.

11. 303.2-ci maddəsinə "Məhkəmənin hökmünə" sözlərindən sonra "(qərarına)" sözü və "hökmünün" sözündən sonra "(qərarının)" sözü əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1639-VQD*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (I kitab), maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə 1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2 (I kitab), maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248, N 12, maddələr 1998, 2018; 2017, N 2, maddələr 151, 153, N 5, maddələr 703, 735, N 6, maddə 1035, N 11, maddə 1953, N 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, N 2, maddə 142, N 4, maddə 650, N 5, maddələr 845, 851, N 11, maddə 2212, N 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, N 1, maddələr 23, 50; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel 1566-VQD nömrəli, 3 may tarixli 1575-VQD və 1584-VQD nömrəli, 17 may tarixli 1588-VQD və 1593-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 55.7-ci maddə əlavə edilsin:

"55.7. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin yenidən təşkil olunması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin yenidən təşkil edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.".

2. 59-cu maddə üzrə:

2.1. 59.2.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 59.2.4-cü maddə əlavə edilsin:

"59.2.4. məhkəmənin yekun qərarı ilə hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbir tətbiq edildikdə.";

2.2. 59.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bu Məcəllənin 59.2.4-cü maddəsində göstərilən əsas üzrə hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur.";

2.3. aşağıdakı məzmunda 59.9-cu maddə əlavə edilsin:

"59.9. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin onun

təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin ləğv edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.".

3. 212-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Müsadirə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda məhkəmə qərarı ilə əmlakın məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınmasıdır.".

4. 908.1.1-ci maddədə "hökmünə" sözündən sonra "(qərarına)" sözü əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il*
*N 1640-VQD*

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775; 2018, N 12 (I kitab), maddələr 2471, 2531; 2019, N 1, maddələr 16, 21) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.8.1-ci maddəyə "yenidən təşkili," sözlərindən sonra "məhkəmənin yekun qərarı ilə cinayət-hüquqi tədbir qismində hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 14.1.8-1-ci, 14.1.9-1-ci və 14.3-cü maddələr əlavə edilsin:

"14.1.8-1. qurum barəsində müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi haqqında məhkəmənin yekun qərarına dair məlumat;";

"14.1.9-1. hüquqi şəxsin yenidən təşkil edilməsinin, yaxud ləğv olunmasının qadağan edilməsi, habelə hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi ilə bağlı məlumatlar;";

"14.3. Bu Qanunun 14.1.9-1-ci maddəsində nəzərdə tutulan məlumatlar Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində müəyyən edilmiş qaydada qeydiyyat orqanına göndərilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 iyul 2019-cu il.*
*N 1641-VQD*

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7 (I kitab), maddə 1442, N 12 (I kitab), maddə 2525; 2019, N 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 106-cı maddə üzrə:

1.1.1. birinci hissəyə "məbləğdə" sözündən sonra "aylıq" sözü və "edilir" sözündən sonra "və onlara bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir" sözləri əlavə edilsin;

1.1.2. birinci hissənin ikinci abzasında "2280 manat" sözləri "Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşı" sözləri ilə əvəz edilsin;

1.1.3. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün hakimlərə vəzifə maaşının 25 faizi miqdarında vergidən azad olunan aylıq pul təminatı verilir.";

1.2. 107-ci maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və həmin hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hakimlərə məzuniyyətə çıxdığı vaxt məzuniyyət haqqı və iki aylıq əmək haqqı məbləğində müavinət verilir. Məzuniyyət haqqının hesablanması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

**Maddə 2.** Bu Qanun 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 iyul 2019-cu il*
*1647-VQD*